RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 287 (9742) 27 dekabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Prezidentin Mətbuat xidmətinin məlumatı

Dekabrın 26-da Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Şavkat Mirziyoyev baş vermiş təyyarə qəzası ilə bağlı Azərbaycan Prezidentinə və həlak olanların yaxınlarına başsağlığını bildirib, yaralanan şəxslərin tezliklə sağalmalarını arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlıq edib.

❖ ❖ ❖

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İran Prezidenti təyyarə qəzası nəticəsində insanların həlak olması ilə bağlı Azərbaycan Prezidentinə və həlak olanların ailə üzvlərinə başsağlığını çatdırıb, yaralananların tezliklə şəfa tapmasını diləyib.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.

❖ ❖ ❖

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Məhəmməd Şahbaz Şərif təyyarə qəzası nəticəsində insanların həlak olması ilə bağlı Prezident İlham Əliyevə və həyatını itirən şəxslərin yaxınlarına başsağlığı verib, xəsarət alanlara şəfa arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə təşəkkür edib.

## Dünya liderləri təyyarə qəzası ilə əlaqədar İlham Əliyevə başsağlığı veriblər

Hörmətli cənab Prezident!

Azərbaycana məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində insanların faciəli surətdə həlak olmaları xəbərindən sarsıldım.

Çin Hökuməti və xalqı adından həlak olanlara görə kədərimi ifadə edir, onların ailələrinə dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmalarını arzulayıram.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycana məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması, çoxlu sayda insanın həlak olması və yaralanması barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Bu fəlakət zamanı həyatını itirənlərin ailələrinə dərin hüznlə başsağlığı verir, yaralılara şəfa diləyirəm. Ölkəmizin bütün vətəndaşları Azərbaycan xalqının hüzn və kədərinə şərikdirlər.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstan Respublikasında qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı və yaralanması xəbərini dərin hüzn və kədərlə qarşıladıq.

Bu ağır itki ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaralıların tezliklə sağalmalarını arzu edirik.

*Hörmətlə,*

***Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində çoxsaylı insanın faciəli ölümü və yaralanması ilə bağlı xəbəri dərin kədər hissi ilə qarşıladım.

Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə, Azərbaycan vətəndaşlarına, eləcə də həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananlara tezliklə sağalmalarını arzulayıram.

*Hörmətlə,*

***Peter PELLEQRİNİ,***
***Slovakiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Qazaxıstanın Aktau şəhəri yaxınlığında çoxlu insan tələfatına və yaralanmasına səbəb olan faciəvi təyyarə qəzası ilə bağlı xəbər məni dərindən kədərləndirdi və sarsıtdı.

Zati-alinizə, Azərbaycan Hökumətinə və xalqına, o cümlədən bu hadisə nəticəsində həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm. Belə bir kədərli gündə dualarımızın xüsusilə də faciənin nəticələri ilə üzləşmiş sağ qalan insanlarla olduğunu bildirirəm.

*Hörmətlə,*

***Məhəmməd MUİZZU,***
***Maldiv Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin dekabrın 25-də çoxsaylı insanın faciəli şəkildə həlak olması ilə nəticələnən qəzaya uğraması xəbərini dərin kədər hissi ilə qarşıladım.

Bu matəm günündə zati-alinizə və Azərbaycan xalqına Qvineya-Bisau xalqının adından və öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Umaru Sisoku EMBALO,***
***Qvineya-Bisau Respublikasının Prezidenti***

## Qəza ilə bağlı vacib olan bütün tədbirlər həyata keçirilir

Sankt-Peterburqda MDB Zirvə görüşündə iştirak üçün ora səfərə yollanan dövlət başçısı təyyarə qəzası barədə məlumat alan kimi geriyə dönərək lazımi tapşırıqlarını verib. Prezident təyyarə qəzası ilə bağlı müşavirə keçirib və təcili olaraq dövlət komissiyası yaradılıb. Hadisənin tam araşdırılması, qəzanın səbəblərinin öyrənilməsi və bütün təfərrüatlarının xalqa çatdırılması vacib məsələ kimi qarşıya qoyulub. Bu, əlbəttə ki, ölkə rəhbərinin hadisələrə operativ reaksiyasından irəli gəlir. Aktauda baş verən qəza nəinki xalqımız, eləcə də Azərbaycanı istəyən xalq və dövlətlər üçün bir acı, kədərdir. Bu qəza və qəzanın başvermə səbəblərinin öyrənilməsi diqqət mərkəzində olacaq və lazımi orqanlar tərəfindən araşdırılacaq.

Prezidentin məsələyə dərhal reaksiyası və xalqın kədərini ürəyində daşıması bir daha göstərir ki, ölkə rəhbəri xalqı, torpağı üçün canı yanan, ürəkdən kədərlənən bir liderdir. Dekabrın 26-sının matəm elan edilməsi də bu kədərin, hüznün ifadəsidir. Bu həm də dövlətimizin rəhbərinin öz vətəndaşına sayğısının, qayğısının və həlak olanların ailələrinə ehtiramının ifadəsidir. Cənab Prezident hakimiyyətə gəldiyi ilk gündən andiçmə mərasimində bildirmişdi ki, o, hər bir Azərbaycan vətəndaşının Prezidentidir. Bugünkü reallıqlar Prezidentin öz vəzifəsinə, sözünə sadiqliyini bir daha göstərir. Azərbaycan xalqı öz rəhbəri ilə, onun xalqa göstərdiyi qayğı və diqqətə görə qürur duyur. İnsanlar İlham Əliyevə arxalanırlar. Onun müdrikliyinə, uzaqgörənliyinə, qayğısına inanırlar. Məhz buna görə də uğurlarımız ildən-ilə artır. İnsanlarımız öz rəhbəri ətrafında daha sıx birləşib, kədərlərini, sevinclərini birgə paylaşırlar.

→ 4

# Proseslər Prezidentin nəzarətindədir



## Dövət aviaqəzanın nəticələrinin aradan qaldırılması üçün genişmiqyaslı fəaliyyət həyata keçirir

**Dekabrın-25-də Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na məxsus "Embraer 190" təyyarəsinin Qazaxıstanın Aktau hava limanı yaxınlığında qəzaya uğraması ilə bağlı acılan cinayət işinin istintaqı davam edir.**

Prezident İlham Əliyevin nəzarətində olan bu hadisənin başvermə səbəbləri tez bir zamanda araşdırılaraq ictimaiyyətə çatdırılacaq. Hadisə nəticəsində 38 nəfər həlak olub, 29 nəfər isə yaralanıb.

### "Qara qutu" artıq tapılıb və uyğun prosedurlar həyata keçirilir

Dünən "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Samir Rzayev jurnalistlərə açıqlamasında söyləyib ki, hazırda hadisənin başvermə səbəbləri ilə bağlı araşdırmalar davam edir. Onun sözlərinə görə, təyyarənin "qara qutu"su artıq tapılıb və onun təhlili üçün beynəlxalq aviasiya konvensiyalarına uyğun prosedurlar həyata keçirilir: "Təyyarə oktyabr ayında tam təmirdən çıxıb, texniki baxışdan keçib və uçuşları 15 min saatdan çox olan təcrübəli pilotlar tərəfindən idarə edilirdi. Çox peşəkar təyyarə bələdçilərimiz olub. Təəssüf ki, iki pilotumuzu və bir təyyarə bələdçimizi itirdik. Amma onlar vəzifələrini qəhrəmancasına yerinə yetirdiklərinə görə 29 nəfər sağ qalıb. Buna baxmayaraq, hadisənin səbəbləri araşdırılır", - deyə o əlavə edib.

AZAL rəhbəri diqqətə çatdırıb ki, hazırda Aktau şəhərində olan sağ qalmış sərnişinlərin və dünyasını dəyişənlərin cəsədlərinin Azərbaycana geri qaytarılması üçün hazırlıqlar görülür: "Bu faciəvi hadisə xalqımıza böyük itki yaşatsa da, qəhrəman ekipaj üzvlərinin vəzifələrini son ana qədər ləyaqətlə yerinə yetirmələri, insan həyatını hər şeydən üstün tutmaları onların adlarını tarixə yazdırdı. Hadisə ilə bağlı araşdırmalar davam etdikcə, əlavə məlumatlar paylaşılacaq. Biz həyatını itirənlərə Allahdan rəhmət diləyir, yaralananlara isə tezliklə şəfa tapmalarını arzulayırıq".

### Azərbaycan qəzanı Qazaxıstan və Braziliya ilə birgə araşdırır

Qəzaya düşən "Azərbaycan Hava Yolları"na məxsus "Embraer 190" təyyarəsi ilə bağlı Azərbaycan, Qazaxıstan və Braziliya nümayəndələri birlikdə araşdırma aparırlar.

Bu barədə Qazaxıstan Nəqliyyat Nazirliyi məlumat yayıb.

Həmçinin Qazaxıstanda nəqliyyat vasitələrinin istismarı zamanı təhlükəsizlik qaydalarının pozulması maddəsi ilə cinayət işi başlanılıb.

Məlumat üçün bildirək ki, Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi Braziliya istehsalıdır. Azərbaycan 2013-cü ildən uçuşlarda bu təyyarələrdən istifadə edir.

→ 3

## Sükut dəqiqəsi





## Cinayət işinin istintaqı ilə bağlı müxtəlif versiyalar irəli sürülür

Dekabrın 25-də MDB başçılarının Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa səfərə gedən Prezident İlham Əliyev uçuş zamanı faciə ilə bağlı məlumat alan kimi dərhal tapşırıqlar verib və geri dönüb. Hələ havada ikən cənab Prezident bu hadisə ilə bağlı müvafiq göstərişlər verib. Baş nazirin rəhbərliyi ilə komissiyanın yaradılması, eyni zamanda Azərbaycan nümayəndələrindən ibarət heyətin qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilməsi tapşırılıb. Əlavə tapşırıqla azərbaycanlı həkimlərdən ibarət briqada da Aktau şəhərinə göndərilib. Baş vermiş hadisə ilə bağlı Aktauda Azərbaycanın baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 262.3-cü (hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma ehtiyatsızlığından iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb.

Cinayət işinin istintaqı ilə bağlı müxtəlif versiyalar irəli sürüldüyünü deyən A.Nağıyev vurğulayıb ki, hadisə ciddi şəkildə araşdırılacaq və məsələyə aydınlıq gətiriləcək. Bütün proseslər Prezident İlham Əliyevin nəzarətindədir. Eyni zamanda dövlət başçısı təyyarə qəzası ilə bağlı müşavirə keçirərək, bir daha tapşırıqlarını verib. Faciə ilə bağlı 26 dekabr Azərbaycanda matəm günü elan edilib.

→ 4

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, əziz Qardaşım!

Dekabrın 25-də "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında faciəvi surətdə qəzaya uğraması ilə əlaqədar Pakistan xalqı və hökuməti adından, şəxsən öz adımdan Sizə, azərbaycanlı qardaş və bacılarımıza dərin hüznlə başsağlığı verirəm.

Pakistan xalqı insanların həyatını itirməsi ilə nəticələnən bu hüznlü hadisə barədə xəbəri dərin kədər hissi ilə qarşıladı. Biz bu kədərli vaxtda zati-aliniz və Azərbaycan xalqı ilə həmrəy olduğumuzu bildiririk.

Düşüncələrimiz və dualarımız həlak olanların ailələrinin yanındadır, yaralananların tezliklə sağalmalarını diləyirik. İnanıram ki, cəsur Azərbaycan xalqının dözümlülüyü və birliyi bu çətin dövrü dəf etməyə kömək edəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstan ərazisində qəzaya uğraması nəticəsində çoxsaylı insanın həlak olması və yaralanması xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Bu ağır itki ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaralananlara tezliklə şəfa tapmalarını arzulayırıq.

*Hörmətlə,*

***Şeyx Məhəmməd bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın Əmiri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanda qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı və yaralanması xəbəri bizi dərindən kədərləndirdi.

Bu faciəvi hadisə ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmalarını diləyirik.

*Hörmətlə,*

***Şeyx Mansur bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident işləri naziri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Qazaxıstanın Aktau şəhəri yaxınlığında çoxlu sayda insanın həlak olduğu təyyarə qəzası ilə bağlı xəbər məni dərindən kədərləndirdi.

Bosniya və Herseqovina vətəndaşları adından və şəxsən öz adımdan Sizə, həlak olanların ailələrinə, Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

*Hörmətlə,*

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının möhtərəm Prezidenti, əziz dost!

İcazə verin, "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qazaxıstan ərazisində qəzaya uğraması ilə əlaqədar dərin kədərimi və hüznümü ifadə edim.

İnsan ölümü hər zaman çox ağır itkidir. Əzizlərini itirən ailələrə dərin hüznlə başsağlığı veririk, xəsarət alanların tezliklə sağalmalarını diləyirik.

Möhtərəm Prezident, xalqınıza dərin rəğbətimi bir daha ifadə edərək, bu çətin anlarda Sizə səbir arzulayıram.

*Hörmətlə,*

***Milorad DODİK,***
***Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Qazaxıstanın Aktau şəhəri yaxınlığında Azərbaycanın sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində insan tələfatı xəbərini təəssüf hissi ilə öyrəndim.

Bu faciə ilə əlaqədar kədərinizi bölüşərək, qardaş Azərbaycan xalqına və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, sağ qalan insanlara görə Uca Allaha şükür edir, yaralıların tezliklə sağalmalarını diləyirəm.

Allah Sizi və xalqınızı qorusun.

*Hörmətlə,*

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı xəbər məni və Banqladeş xalqını çox sarsıtdı.

Təyyarə qəzası nəticəsində insan tələfatı bizi dərindən kədərləndirdi. Mən həlak olanların ruhuna dualar edir və ailələrinə dərin hüznlə başsağlığı verirəm. Həmçinin xəsarət alanların tezliklə sağalmalarını arzu edirəm.

Bu kədərli vaxtda biz Azərbaycan Respublikası ilə həmrəyik və dualarımız xalqınızladır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd YUNUS,***
***Banqladeş Xalq Respublikası Müvəqqəti Hökumətinin Baş müşaviri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

"AZAL" aviaşirkətinin Bakıdan Qroznıya uçan sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə və yaxınlarına bütün dağıstanlılar adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Dərdinizi səmimi-qəlbdən bölüşür, Sizinlə birlikdə kədərlənirik.

Xəsarət alanların tezliklə şəfa tapmasını arzulayırıq.

*Hörmətlə,*

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Dekabrın 25-də "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması xəbəri Tatarıstan Respublikasında dərin kədər hissi ilə qarşılanıb.

Yaxınlarını itirən ailələrə dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmalarını diləyirəm.

Biz bu itkilərin acısını ürəkdən bölüşür və qardaş Azərbaycan xalqı ilə birlikdə kədərlənirik.

*Hörmətlə,*

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi, "Rusiya - İslam Dünyası" Strateji Baxış Qrupunun sədri***

❖ ❖ ❖

Zati-aliləri!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində insanların həlak olması ilə bağlı dəhşətli xəbər bizi dərindən kədərləndirdi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından zati-alinizə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, kədərinizi bölüşdüyümüzü bildiririk, yaralıların isə tezliklə sağalmalarını arzulayırıq.

Zati-aliləri, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

*Hörmətlə,*

***Vayra VİKE-FREYBERQA,***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti*
***İsmail SERAGELDİN,***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti*
***Mariya Fernanda ESPİNOZA,***
*BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri, 2017-2018-ci illərdə Ekvadorun xarici işlər naziri*
***Rosen PLEVNELİYEV,***
*2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti*
***İvo YOSİPOVİÇ,***
*2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti*
***Filip VUYANOVİÇ,***
*2003-2018-ci illərdə Monteneqronun Prezidenti*
***Zlatko LAQUMCİYA,***
*2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri*
***Eka TKEŞELAŞVİLİ,***
*2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini*
***Volkan BOZKIR,***
*BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri*
***Petar STOYANOV,***
*1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti*
***Vuk YEREMİÇ,***
*BMT Baş Assambleyasının 67-ci sessiyasının sədri*

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbəri məni dərindən kədərləndirdi.

Qəza nəticəsində faciəli şəkildə həlak olanlarla əlaqədar Həştərxan vilayətinin bütün sakinləri adından və şəxsən öz adımdan Sizə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayırıq.

Sizin kədərinizi bölüşürük.

*Dərin hüznlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri!

"Azərbaycan Hava Yolları"nın təyyarəsinin Qazaxıstan ərazisində qəzaya uğraması nəticəsində sərnişinlərin və ekipaj üzvlərinin həlak olması xəbərindən sarsıldım.

Sizə və həlak olanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verir, bütün xəsarət alanların tezliklə sağalmalarını arzulayıram.

*Dərin hörmətlə,*

***Can MİN,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri!

"Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qroznı reysini həyata keçirən təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı xəbər məni dərindən kədərləndirdi. Çoxlu sayda insanın həyatına son qoymuş bu hadisə Azərbaycan üçün böyük itkidir.

Zati-alinizə və Azərbaycan xalqına, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzu edirəm.

Bu faciə türk dünyasında hər kəsi dərindən təsirləndirdi, kədərli anlarda birliyin və dəstəyin önəmini xatırladtı. Bu hüznlü hadisə ilə bağlı Azərbaycan xalqı ilə həmrəyik və kədərinizi bölüşürük.

*Dərin hörmət və ehtiramla,*

***Kubanıçbek ÖMÜRALİYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

## Azərbaycan və Qazaxıstanın Baş nazirləri arasında növbəti telefon danışığı olub

Dekabrın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov arasında növbəti telefon danışığı baş tutub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hökumət başçıları ötən gün baş vermiş təyyarə qəzası ilə əlaqədar bir-birilərinə və həlak olan şəxslərin ailə üzvlərinə və yaxınlarına təziyələrini, başsağlıqlarını ifadə edib, xəsarət alanlarına tezliklə şəfa tapmalarını diləyiblər.

Ə.Əsədov qəza baş verdikdən dərhal sonra axtarış-xilasetmə əməliyyatının həyata keçirilməsində yüksək operativlik göstərdiyinə və hadisə ilə bağlı bütün məsələlərdə yaxından dəstək verdiyinə görə Qazaxıstan tərəfinə təşəkkür edib.

O.Bektenov Azərbaycanın Astanadakı səfirliyini ziyarət etdiyini, qəza nəticəsində çoxsaylı insan ölümü ilə əlaqədar dərin hüznlə başsağlığı verdiyini, səfirlikdə açılan xatirə kitabına qeyd qoyduğunu bildirib.

Telefon danışığı zamanı qəza nəticəsində xəsarət alanlara və yaralananlara Azərbaycan və Qazaxıstanın aidiyyəti qurumları tərəfindən yüksək koordinasiya şəraitində təxirəsalınmaz yardım göstərilməsi, sağ qalan Azərbaycan vətəndaşlarının, habelə həlak olan şəxslərin cəsədlərinin ölkəmizə gətirilməsi, həmçinin hadisə ilə bağlı bir sıra digər çevik cavab tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda hadisənin başvermə səbəblərinin araşdırılması ilə bağlı cinayət işi üzrə birgə aparılan istintaq gedişi müzakirə olunub.

## Təyyarə qəzası ilə əlaqədar Milli Məclisin ünvanına başsağlıqları gəlməkdə davam edir

"Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin qəzaya uğraması ilə əlaqədar Milli Məclisin ünvanına başsağlıqları gəlməkdə davam edir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri Ziya Öztürkler Milli Məclisin Sədri Sahibə Qafarovaya zəng edərək baş vermiş dəhşətli qəzadan kədərləndiklərini bildirib, xalqımıza və qəzada həlak olanların ailələrinə dərin hüznlə başsağlığı veriblər.

Həmçinin, Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayevanın, Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emomalinin, Qazaxıstan Respublikası Parlament Məclisinin Sədri Yerlan Koşanovun, Monteneqro Parlamentinin Sədri Andriya Mandiçin, MDB PA Şurası Katibliyinin Milli Məclis Sədrinə ünvanladıqları məktublarda təyyarə qəzası nəticəsində həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verilib, yaralıların tezliklə sağalmaları diləyiblər.

Bundan başqa, Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq, Gürcüstan parlamentinin Sədri Şalva Papuaşvili, Kuba Respublikası Xalq Hakimiyyəti Milli Assambleyasının Sədri Xuan Esteban Lazo Hernandes özlərinin sosial şəbəkələrdəki səhifələrindən paylaşımlar edərək, bu çətin günlərdə xalqımızla həmrəyliklərini ifadə ediblər.

***"Azərbaycan"***

## Xarici ölkələrin XİN rəhbərləri başsağlığı veriblər

Dekabrın 25-də Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazir Murat Nurtleu "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qazaxıstanın Aktau şəhərində qəzaya uğraması xəbərini böyük kədər hissi ilə qarşıladıqlarını qeyd edib. Qazaxıstan naziri qəza nəticəsində həlak olanların ailələrinə, dost və qardaş Azərbaycan xalqına, dərin hüznlə başsağlığı verib. Qəzanın ilk anlarından Qazaxıstan fövqəladə hallar qurumlarının tam səfərbər olduğu və qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak etdikləri diqqətə çatdırılıb. Qəzanın səbəblərinin araşdırılması istiqamətində istintaq qrupu yaradıldığı və müvafiq tədbirlər görüldüyü bildirilib.

Nazir Ceyhun Bayramov qazaxıstanlı həmkarına başsağlığı diləklərinə görə təşəkkür edib, öz növbəsində həlak olan Qazaxıstan vətəndaşlarının ailələrinə, dost və qardaş Qazaxıstana başsağlığı verib. Göstərilən dəstəyə görə minnətdarlıq bildirilib.

❖ ❖ ❖

Dekabrın 26-da Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, telefon danışığı zamanı Baxtiyor Saidov ötən gün ölkəmizin Bakı-Qroznı reysini yerinə yetirən təyyarəsinin Aktau şəhəri yaxınlığında uğradığı faciəvi qəza ilə əlaqədar Özbəkistan dövləti və xalqı adından başsağlığı verib. O, vəfat edən şəxslərə Allahdan rəhmət, doğmalarına səbir, yaralılara şəfa arzulayıb. Özbəkistanın qardaş Azərbaycanla bu çətin günlərdə həmrəy olduğu, kədərini bölüşdüyü diqqətə çatdırılıb, bir daha belə bir faciənin baş verməməsinə ümidvarlıq ifadə edilib.

Ceyhun Bayramov başsağlığına, ölkəmiz və xalqımız üçün ağır bir gündə göstərilən dəstəyə görə qardaş Özbəkistan Respublikasına təşəkkür edib.

Qəzanın baş verdiyi ilk dəqiqələrdən etibarən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, təyyarə qəzasının səbəblərinin araşdırılması üçün Dövlət Komissiyasının yaradıldığı, ölkəmizin müvafiq qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyətinin qəza yerinə ezam olunduğu bildirilib, qəzanın fəsadlarının aradan qaldırılması, xəsarət alanlara yardım göstərilməsi üçün görülən tədbirlər barədə məlumat verilib.

❖ ❖ ❖

Dekabrın 26-da Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazir M.Botçorişvili dekabrın 25-də "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin Aktauda qəzaya uğraması nəticəsində həlak olanların ailə üzvlərinə başsağlığı diləklərini çatdırıb, dost Azərbaycan xalqına səbir diləyib. Bu faciəvi gündə Gürcüstanın hər zaman Azərbaycanın yanında olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov başsağlığına, ölkəmiz və xalqımız üçün ağır bir gündə göstərilən dəstəyə görə dost Gürcüstan tərəfinə təşəkkür edib

***AZƏRTAC***



## Pakistanın Baş naziri Şahbaz Şərif Azərbaycanın İslamabaddakı səfirliyində olub

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif dekabrın 26-da Azərbaycanın İslamabaddakı səfirliyində olub.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, Baş nazir "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində insan itkisi ilə əlaqədar Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib, xəsarət alanlara tezliklə şəfa diləyib. Məhəmməd Şahbaz Şərif başsağlığı kitabında ürək sözlərini yazıb. O, Pakistanın qardaş Azərbaycana hər cür yardım göstərməyə hazır olduğunu bildirib.

## Gürcüstan parlamentinin sədri təyyarə qəzası ilə əlaqədar Azərbaycanın Tbilisidəki səfirliyinə gedib

Təyyarə qəzası nəticəsində həlak olanların xatirəsi Gürcüstanda da anılıb.



AZƏRTAC xəbər verir ki, dekabrın 26-da Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili, xarici işlər naziri Maya Boçorişvili, regional inkişaf və infrastruktur naziri İrakli Karseladze, Suxumi Dövlət Universitetinin rektoru Zurab Xonelidze, Qriqol Robakidze Universitetinin prorektoru Vaxtanq Çaraya, Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Faiq Nəbiyev, Qazaxıstanın Gürcüstandakı səfiri Malik Murzalin, Türkiyənin bu ölkədəki səfiri Ali Kaan Orbay, Kuba Respublikasının Azərbaycan və Gürcüstandakı səfiri Karlos Enrite Valdes, ictimaiyyət xadimləri, Azərbaycan icmasının üzvləri, tələbə və gənclər Azərbaycanın Gürcüstandakı səfirliyinə gələrək AZAL şirkətinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində həlak olanlarla bağlı başsağlığı veriblər. Təyyarə qəzasında həlak olanların və şəhidlərimizin ruhuna dualar oxunub.

Sonra qonaqlar başsağlığı kitabına ürək sözlərini yazıb, Azərbaycan xalqının dərdinə şərik olduqlarını bildiriblər.



## Tacikistanın xarici işlər naziri Azərbaycan səfirliyində xalqımıza başsağlığı verib

Dekabrın 26-da Tacikistan Respublikasının xarici işlər naziri Sirociddin Muhriddin Azərbaycan Respublikasının Tacikistandakı səfirliyini ziyarət edib və "Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qroznı reysini yerinə yetirən təyyarənin qəzaya uğraması və sərnişinlərin həlak olması ilə əlaqədar səfirlikdə açılmış başsağlığı kitabına ürək sözlərini yazıb.

Bu barədə AZƏRTAC-a səfirlikdən məlumat verilib. Nazir Tacikistan Respublikası hökuməti adından səfir Əlimirzaman Əskərova və həlak olan sərnişinlərin yaxınlarına dərin hüznlə başsağlığı verib, bütün xəsarət alanların tezliklə sağalmasını arzulayıb.



# Proseslər Prezidentin nəzarətindədir

## Dövət aviaqəzanın nəticələrinin aradan qaldırılması üçün genişmiqyaslı fəaliyyət həyata keçirir

*Əvvəli 1-ci səh.*

Qazaxıstan Respublikası Nəqliyyat Nazirliyinin Mətbuat xidmətinin məlumatına əsasən, müvafiq idarənin Nəqliyyatda Qəzaların və İnsidentlərin Araşdırılması Departamentinin əməkdaşları Aktau şəhərində baş vermiş hadisə yerindədirlər. Hazırda burada araşdırmanın sahə mərhələsi keçirilir.

Bildirilir ki, Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Agentliyinin, eləcə də "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) nümayəndə heyəti Qazaxıstana səfərə gəlib. Sahə işləri Azərbaycan tərəfi ilə sıx əməkdaşlıq şəraitində aparılır.

Təyyarə istehsalçısı "Embraer and CENIPA" (Təyyarə Qəzalarının Araşdırılması və Qarşısının Alınması Mərkəzi, Braziliya) şirkətinin nümayəndələri də Qazaxıstana uçublar.

### Psixoloq qrupu zərərçəkmişlərlə görüşüb, onlara xidmət göstərib

"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus sərnişin təyyarəsi qəzaya uğradıqdan dərhal sonra Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq zəruri vasitələrlə təchiz edilmiş Fövqəladə Hallar Nazirliyinin təcrübəli psixoloq, həkim və xilasedicilərindən ibarət qrupu adıçəkilən nazirliyə məxsus "BE-200 ÇS" amfibiya tipli təyyarə ilə Aktau şəhərinə göndərilib.

Nazirliyin psixoloqları zərərçəkmişlərə təcili psixoloji yardım göstəriblər. Habelə həkimlər tərəfindən zərurət yarandığı təqdirdə tibbi müdaxilələr həyata keçirilir.

Bu sözləri hadisə yerinə ezam olunmuş Fövqəladə Hallar Nazirliyinin tibbi xidmətinin həkimi Nigar Pənahova söyləyib. Onun sözlərinə görə, tibbi xidmətin tərkibində olan psixoloq qrupu zərərçəkmişlərlə görüşüb, onlara xidmətlər göstərib. "Ümumi olaraq 29 nəfər zərərçəkmiş var. 27 nəfər Mangistau regional xəstəxanasına yerləşdirilib. İki uşaq isə başqa xəstəxanaya aparılıb. Xəstələrdən üçünün vəziyyəti ağır qiymətləndirilir", - deyə o bildirib.

### Sükut dəqiqəsi

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğraması nəticəsində həyatını itirən insanların xatirəsi dekabrın 26-da Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində birdəqiqəlik sükutla yad olunub.

Həmin anda paytaxtın küçələrində nəqliyyat vasitələrinin hərəkəti dayandırılıb.

Qeyd edək ki, respublikamızın şəhər və rayonlarında, idarə və təşkilatlarda, xarici ölkələrdə və məscidlərdə qəza nəticəsində həlak olanların xatirəsi anılıb.

Xatırladaq ki, dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar Prezident İlham Əliyev dekabrın 26-sının Azərbaycanda matəm günü elan olunması barədə Sərəncam imzalayıb.

### Qəzada zərərçəkən 14 vətəndaşımız Vətənə gətirilib

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində 1-i uşaq olmaqla, 14 zərərçəkmiş vətəndaşımız dekabrın 26-da Mangistau regional xəstəxanasından çıxarılaraq ölkəmizə gətirilib. Onlar Azərbaycan Səhiyyə Nazirliyinin əməkdaşlarının müşayiəti ilə təxliyə ediliblər. Qəzadan sağ çıxan vətəndaşlarımızdan 7-si FHN-in xüsusi təyyarəsi ilə Bakıya gətirilib. Vəziyyəti orta-ağır qiymətləndirilən sərnişinlər ayrılmış həkim briqadasının müşayiəti altında Heydər Əliyev Beynəlxalq Hava Limanına enib.

Onlar təcili tibbi yardım avtomobilləri ilə Yeni Klinikaya aparılıblar.

### İkinci "qara qutu" tapılıb

"Azərbaycan Hava Yolları" aviaşirkətinin təyyarəsinin Aktau yaxınlığında qəzaya uğradığı yerdə daha bir "qara qutu" tapılıb.

Bu barədə Qazaxıstanın Mangistau vilayətinin nəqliyyat prokuroru Abılaybek Ordabayev Aktauda keçirdiyi brifinqdə məlumat verib. "İki uçuş məlumatları qeydiyyat cihazı tapılıb və onlar əlavə ekspertiza üçün Hava Məkanında Qəzaların Araşdırılması İdarəsinə göndəriləcək", - deyə o bildirib.

### 4 nəfərin nəşi Bakıya gətirilib

"Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkətinə məxsus "Embraer 190" təyyarə qəzasında həlak olanların nəşi Aktaudan Bakıya gətirilib.

AZAL-ın təyyarəsi qəza nəticəsində yaralanan 7 nəfəri və həlak olan 4 nəfərin nəşini Bakıya gətirib.

### Prezidentə başsağlığı məktubları, telefon zəngləri gəlməkdə davam edir

Aviaqəza ilə əlaqədar dünən Prezident İlham Əliyevə çoxlu sayda başsağlığı məktubları gəlib və telefon zəngləri olub.

Çin Xalq Respublikasının Sədri Si Cinpin, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian, Slovakiya Prezidenti Peter Pelleqrini, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident işləri naziri Şeyx Mansur bin Zayed Al Nəhyan, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Məktum, Fələstin Prezidenti Mahmud Abbas, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Maldiv Prezidenti Məhəmməd Muizzu, Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Min, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərindən gələn məktublarda liderlər, təşkilat rəhbərləri hadisədən kədərləndiklərini bildirir, Prezidentə, xalqımıza dərin hüzlə başsağlığı verirlər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***











# Sonadək peşəkarlıq, təmkin və qəhrəmanlıq göstərənlər

"Hamı sakit olsun!" Özü sakitliyini qorumağa çalışır. Həyəcanlı olsa da, özünü təmkinli aparır. Amma vəziyyətin nə qədər ağır olduğunu, böyük bir fəlakətlə çarpışdıqlarını təyyarədəki sərnişinlərdən daha yaxşı bilir. Sərnişinlərə ürək-dirək verir, toxtaq olmağa çağırır. Və onları təlimatlandırır: "Hər kəs kəmərlərini bağlasın". Qəza anında yenə onun - təyyarə bələdçisi Hökümə Əliyevanın səsi eşidilir: "Hər şey yaxşı olacaq!"

Sərnişin təyyarəsi Aktau şəhərinin 3 kilometr yaxınlığında təcili qəza enişi edir. Təyyarənin ekipaj üzvləri son anlaradək öz vəzifə borclarını peşəkarlıqla yerinə yetirməyə çalışırlar. Ancaq fəlakət qaçılmaz idi...

Dekabrın 25-də "Azərbaycan Hava Yolları" aviaşirkətinin (AZAL) Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması, çoxsaylı insan tələfatının və xəsarət alanların olması xəbəri Azərbaycan xalqını sarsıtdı. Baş vermiş faciə ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün səfərini təxirə salaraq təcili ölkəyə qayıtdı. Dövlət başçısı qəzanın nəticələrinin aradan qaldırılması və səbəblərinin araşdırılması üçün operativ müşavirə keçirdi. Ölkə rəhbərinin imzaladığı müvafiq sərəncamlarla baş vermiş qəzanın səbəblərinin araşdırılması, qəzada həlak olmuş və xəsarət almış şəxslərin ailələrinə yardım göstərilməsi, həmçinin qəzadan zərər görmüş xarici ölkə vətəndaşları ilə bağlı məsələlərin həlli məqsədilə dövlət komissiyası yaradıldı, ölkədə bir günlük matəm elan olundu. Qəzanın səbəbləri ilə bağlı araşdırmalar davam edir. Təyyarənin "qara qutu"su da artıq tapılıb və oxunuşu, təhlili həyata keçiriləcək. Faciənin baş verməsinin dəqiq səbəbləri haqqında araşdırmalardan sonra məlumat veriləcək.



Aktau şəhəri yaxınlığında qəzaya uğramış təyyarədə 5 ekipaj üzvü və 62 sərnişin olmaqla, ümumilikdə 67 nəfər olub. Qəza nəticəsində 38 nəfər həyatını itirib, 29 nəfər sağ qalıb. Həlak olanlardan üç nəfəri ekipaj üzvü idi. İqor Kşnyakin təyyarənin kapitanı, Aleksandr Kalyaninov pilot, Əliyeva Hökümə isə bələdçi idi.

Təyyarəni idarə edən pilotlar və bələdçilər təcrübəli olublar. Sonadək öz vəzifələrini məsuliyyətlə yerinə yetirib, sərnişinlərin həyatını xilas etməyə çalışıblar. Qəzaya uğramış təyyarədə çəkilmiş videogörüntülər, eləcə də hadisə şahidlərinin söylədikləri və mütəxəssislərin rəyləri onların bir an belə özlərini itirmədiklərini, özləri barədə düşünmədiklərini, böyük fədakarlıq, əsl qəhrəmanlıq göstərdiklərini təsdiq edir. Təyyarənin 20-dən çox sərnişini də məhz ekipaj üzvlərinin peşəkarlığı nəticəsində sağ qalıb.

Qəzaya uğrayan təyyarədən sağ çıxan 48 yaşlı sərnişin baş verənlərin təfərrüatlarını bölüşərkən ekipaj üzvlərinin fədakarlığını xüsusi qeyd edib: "Pilotların sayəsində, onlar öz manevrləri ilə bizi xilas etdilər. Onlar olmasaydı, hamımız ölərdik".

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Aktau yaxınlığında ağır qəzaya uğramasına rəğmən sağ qalanların olması çoxlarına möcüzə kimi görünür. Mütəxəssislər bunu pilotların peşəkarlığında görürlər. KİV-də yayılan məlumata görə, o dəhşətli qəzadan 29 nəfərin necə sağ çıxdığı ilə bağlı rusiyalı uçuş təhlükəsizliyi üzrə mütəxəssis Aleksandr Romanov bunları deyib: "Pilotlar təyyarənin enişini böyük yuvarlanma və sürüşmə edərək, riyazi model üzrə həyata keçiriblər". Təhlükəli enişin xüsusi riyazi modelə uyğun edildiyini diqqətə çatdıran ekspert bildirib ki, nəticədə təyyarənin ön hissəsi yerə çırpıldığı an arxa hissə qopub və başqa tərəfə düşüb: "Beləliklə göyərtənin quyruq hissəsinə yaxın yerləşən sərnişinlər sağ qalıblar. Ümumiyyətlə, dünya statistikası da bunu sübut edir: adətən arxada əyləşənlər sağ qalırlar".

Pilotlar qəza öncəsi də zəruri işləri həyata keçiriblər. Son ana qədər də mübarizə aparıblar. Təyyarəni təhlükəsiz enişə yönəltmək üçün maksimum səy göstərilib.

Dekabrın 25-də baş verən, Azərbaycan xalqına matəm yaşadan təyyarə qəzası yaddaşlardan silinməyəcək. Xatirələrdə hər zaman qalan bir də o faciəli anlarda ekipaj üzvlərinin göstərdikləri qəhrəmanlıq olacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qəza ilə bağlı vacib olan bütün tədbirlər həyata keçirilir



"Prezident İlham Əliyev həm sevincli, həm də kədərli günlərdə öz xalqının yanındadır və insanların taleyi, onların həyatı, çətin anları ölkə rəhbərini daim düşündürür, narahat edir. Bu istiqamətdə vacib olan bütün tədbirlər həyata keçirilir. Biz bunu təyyarə qəzası baş verən ilk anda da gördük".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat xatırladıb ki, Sankt-Peterburqda MDB Zirvə görüşündə iştirak üçün ora səfərə yollanan dövlət başçısı təyyarə qəzası barədə məlumat alan kimi geriyə dönərək lazımi tapşırıqlarını verib. Prezident təyyarə qəzası ilə bağlı müşavirə keçirib və təcili olaraq dövlət komissiyası yaradılıb. Hadisənin tam araşdırılması, qəzanın səbəblərinin öyrənilməsi və bütün təfərrüatlarının xalqa çatdırılması vacib məsələ kimi qarşıya qoyulub. "Bu, əlbəttə ki, ölkə rəhbərinin hadisələrə operativ reaksiyasından irəli gəlir. Aktauda baş verən qəza nəinki xalqımız, eləcə də Azərbaycanı istəyən xalq və dövlətlər üçün bir acı, kədərdir. Bu qəza və qəzanın başvermə səbəblərinin öyrənilməsi diqqət mərkəzində olacaq və lazımi orqanlar tərəfindən araşdırılacaq".

Komitə sədri qeyd edib ki, Prezidentin məsələyə dərhal reaksiyası və xalqın kədərini ürəyində daşıması bir daha göstərir ki, ölkə rəhbəri xalqı, torpağı üçün canı yanan, ürəkdən kədərlənən bir liderdir. Dekabrın 26-sının matəm elan edilməsi də bu kədərin, hüznün ifadəsidir. Bu həm də dövlətimizin rəhbərinin öz vətəndaşına sayğısının, qayğısının və həlak olanların ailələrinə ehtiramının ifadəsidir. Cənab Prezident hakimiyyətə gəldiyi ilk gündən andiçmə mərasimində bildirmişdi ki, o, hər bir Azərbaycan vətəndaşının Prezidentidir. Bugünkü reallıqlar



Prezidentin öz vəzifəsinə, sözünə sadiqliyini bir daha göstərir. "Azərbaycan xalqı öz rəhbəri ilə, onun xalqa göstərdiyi qayğı və diqqətlə görə qürur duyur. İnsanlar İlham Əliyevə arxalanırlar. Onun müdrikliyinə, uzaqgörənliyinə, qayğısına inanırlar. Məhz buna görə də uğurlarımız ildən-ilə artır. İnsanlarımız öz rəhbəri ətrafında daha sıx birləşib, kədərlərini, sevinclərini birgə paylaşırlar", - deyə o bildirib.

T.Rzayev vurğulayıb ki, bu qəza bir faciədir, insan tələfatıdır, hər birimizi dərindən kədərləndirir: "Allah qəzada həlak olanlara rəhmət eləsin. Bu, son acımız olsun".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Cinayət işinin istintaqı ilə bağlı müxtəlif versiyalar irəli sürülür

"Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na məxsus "Emraer 190" təyyarəsi Qazaxıstanın Aktau hava limanı yaxınlığında qəzaya uğrayıb. Təyyarədə 62 sərnişin, 5 ekipaj üzvü olub. Məlumatlara əsasən, 38 nəfər həlak olub. Onların 25-i Azərbaycan, 7-si Rusiya, 6-sı Qazaxıstan vətəndaşlarıdır. Sağ qalan 29 nəfər isə xəstəxanaya yerləşdirilib".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev deyib. Deputat xatırladıb ki, xəstəxanaya yerləşdirilənlərdən 15-i Azərbaycan, 9-u Rusiya, 2-si Qırğızıstan vətəndaşlarıdır. Üç nəfərin vətəndaşlığının dəqiqləşdirilməsi istiqamətində iş aparılır. Beş ekipaj üzvünün hamısı Azərbaycan vətəndaşlarıdır. Üç nəfərin həlak olduğu, iki nəfərin sağ qaldığı bildirilir. Hadisə yerində fövqəladə vəziyyət elan edilib. Kinoloji xidmətin iştirakı ilə axtarış-xilasetmə işləri davam etdirilir. Fəsadların aradan qaldırılmasına 400-dən çox mütəxəssis, 90-dan çox texnika, iki təyyarə, iki kinoloji texnika cəlb olunub. Bu, Qazaxıstan tərəfinin verdiyi məlumatdır.

Komitə sədri qeyd eidb ki, dekabrın 25-də MDB başçılarının Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa səfərə gedən Prezident İlham Əliyev uçuş zamanı faciə ilə bağlı məlumat alan kimi dərhal tapşırıqlar verib və geri dönüb: "Hələ havada ikən cənab Prezident bu hadisə ilə bağlı müvafiq göstərişlər verib. Baş nazirin rəhbərliyi ilə komissiyanın yaradılması, eyni zamanda Azərbaycan nümayəndələrindən ibarət heyətin qəzanın baş verdiyi Aktau şəhərinə ezam



edilməsi tapşırılıb. Əlavə tapşırıqla azərbaycanlı həkimlərdən ibarət briqada da Aktau şəhərinə göndərilib. Baş vermiş hadisə ilə bağlı Aktauda Azərbaycanın baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 262.3-cü (hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma ehtiyatsızlığından iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb".

Cinayət işinin istintaqı ilə bağlı müxtəlif versiyalar irəli sürüldüyünü deyən A.Nağıyev vurğulayıb ki, hadisə ciddi şəkildə araşdırılacaq və məsələyə aydınlıq gətiriləcək. Bütün proseslər Prezident İlham Əliyevin nəzarətindədir. Eyni zamanda dövlət başçısı təyyarə qəzası ilə bağlı müşavirə keçirərək, bir daha tapşırıqlarını verib. Faciə ilə bağlı 26 dekabr Azərbaycanda matəm günü elan edilib.

Komitə sədri qeyd edib ki, Prezidentin müvafiq tapşırığına əsasən, qəzada həlak olanların ailə üzvlərinə müvafiq yardımın göstərilməsi, həmçinin həlak olanların nəşinin ölkəyə gətirilməsi, dəfnləri ilə bağlı da tapşırıqlar verilib. Bütün proseslər Prezident İlham Əliyevin bir rəhbər olaraq istər xoş, istərsə də ağır günlərdə xalqının yanında olduğunu, acını bölüşdüyünü bir daha göstərir.

A.Nağıyev hesab edir ki, cinayət işinin istintaqı ilə bağlı Baş Prokurorluqda yaradılmış istintaq qrupunun Qazaxıstana ezam olunmuş nümayəndələri həmin ölkənin mütəxəssisləri ilə birlikdə ciddi təhqiqatlar aparıb, irəli sürülən versiyaları dəyərləndirərək qəzanın necə baş verməsi barədə ictimaiyyətə məlumat verəcəklər. "Təyyarənin qara qutusunun tapılması mühüm məsələdir. Bu proseslərdə Prezidentin daim Azərbaycanın suverenliyi, xalqın rifahı və hər bir vətəndaşın yanında olması ilə bağlı atdığı addımlar çox təqdirəlayiq hal kimi dəyərləndirilir. Azərbaycan xalqı da əmindir ki, bu problemlərin həlli istiqamətində cənab Prezident kimi qətiyyətli lideri və Ali Baş Komandanı var.

Qəzada həlak olanlara Allahdan rəhmət diləyir, yaralılara isə tezliklə şəfa tapmalarını arzulayıram.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar təyyarə qəzası ilə əlaqədar bəyanat yayıblar

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar AZAL-ın Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar bəyanat yayıblar.

AZƏRTAC bəyanatı təqdim edir:

"2024-cü il dekabrın 25-də "Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysi üzrə sərnişin daşıyan təyyarəsinin qəzaya uğraması nəticəsində insanların faciəvi şəkildə dünyalarını dəyişməsi və xəsarətlər alması bütün xalqımızı dərindən kədərləndirdi.

Baş vermiş hadisə ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasına səfərini təxirə salmış, təcili ölkəyə qayıdaraq qəza nəticələrinin aradan qaldırılması və səbəblərinin araşdırılması üçün operativ müşavirə keçirmişdir. Dövlət başçısının imzaladığı müvafiq sərəncamlarla baş vermiş qəzanın səbəblərinin araşdırılması, qəzada həlak olmuş və xəsarət almış şəxslərin ailələrinə yardım göstərilməsi, həmçinin qəzadan zərər görmüş xarici ölkə vətəndaşları ilə bağlı məsələlərin həlli məqsədilə dövlət komissiyası yaradılmış, ölkədə birgünlük matəm elan olunmuşdur.

İnanırıq ki, müvafiq dövlət qurumları qəzanın səbəblərini qısa müddətdə araşdıraraq ictimaiyyətə ətraflı məlumat verəcək, qəzadan zərər görənlərə lazımi dövlət qayğısı göstəriləcək.

Bəyanatı imzalayan siyasi partiyalar adından təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını arzulayırıq.

Belə ağır günlərdə xalqımızın və dövlətimizin yanında olduğumuzu bəyan edir, bəzilərinin bu bədbəxt hadisəni siyasi spekulyasiya predmetinə çevirmək cəhdini qınayır, vətəndaşlarımızı və bütün dünya azərbaycanlılarını həmrəyliyə çağırırıq.

Uca Allah xalqımızı bəlalardan qorusun!

| | | |
|---|---|---|
| **1.** | **Yeni Azərbaycan Partiyası** | |
| **2.** | **Vətəndaş Həmrəyliyi Partiyası** | **Sabir Rüstəmxanlı** |
| **3.** | **"Ana Vətən" Partiyası** | **Fəzail Ağamalı** |
| **4.** | **Ədalət, Hüquq, Demokratiya Partiyası** | **Qüdrət Həsənquliyev** |
| **5.** | **Böyük Quruluş Partiyası** | **Fazil Mustafa** |
| **6.** | **Demokratik İslahatlar Partiyası** | **Asim Mollazadə** |
| **7.** | **Azərbaycan Demokratik Maarifçilik Partiyası** | **Elşən Musayev** |
| **8.** | **Milli Cəbhə Partiyası** | **Razi Nurullayev** |
| **9.** | **"Azərbaycan Milli İstiqlal" Partiyası** | **Arzuxan Əlizadə** |
| **10.** | **"Böyük Azərbaycan" Partiyası** | **Elşad Musayev** |
| **11.** | **Haqq Ədalət Partiyası** | **Əli İnsanov** |
| **12.** | **Vəhdət Partiyası** | **Tahir Kərimli** |
| **13.** | **Azərbaycan Ümid Partiyası** | **İqbal Ağazadə** |
| **14.** | **Azərbaycan Demokrat Partiyası** | **Sərdar Cəlaloğlu** |
| **15.** | **Azərbaycan Xalq Partiyası** | **Pənah Hüseyn** |
| **16.** | **Milli Dirçəliş Hərəkatı Partiyası** | **Fərəc Quliyev** |
| **17.** | **Ədalət Partiyası** | **İlyas İsmayılov** |
| **18.** | **Klassik Xalq Cəbhəsi Partiyası** | **Mirmahmud Fəttayev** |
| **19.** | **AĞ Partiyası** | **Tural Abbaslı** |
| **20.** | **REAL Partiyası** | **Natiq Cəfərli** |
| **21.** | **Azad Vətən Partiyası** | **Akif Nağı** |
| **22.** | **Müasir Müsavat Partiyası** | **Hafiz Hacıyev** |
| **23.** | **Yeni Zaman Partiyası** | **Musa Ağayev** |
| **24.** | **Gələcək Azərbaycan Partiyası** | **Ağasif Şakiroğlu".** |

# Sankt-Peterburqun qubernatoru Azərbaycana məxsus təyyarənin qəzaya uğraması ilə bağlı başsağlığı verib

Sankt-Peterburqun qubernatoru Aleksandr Beqlov Azərbaycanın baş konsulluğunda başsağlığı kitabına ürək sözlərini yazıb, diplomatik nümayəndəliyin binası önünə gül qoyub.

AZƏRTAC xəbər verir ki, bu barədə Sankt-Peterburq Administrasiyasının Mətbuat mərkəzindən məlumat verilib. Dekabrın 26-da qubernator Aleksandr Beqlov baş konsulluğa gələrək başsağlığı kitabında kədərini ifadə edib: "Aktau şəhərində "Azərbaycan Hava Yolları" QSC-yə məxsus təyyarənin qəzaya uğraması nəticəsində insan tələfatı ilə əlaqədar Sankt-Peterburq sakinləri adından dərin hüznlə başsağlığı verirəm". A.Beqlov həlak olanların doğmalarına və yaxınlarına dəstək sözlərini bildirib, xəsarət alanların tezliklə sağalmasını diləyib.



Qubernator yazıb: "Sankt-Peterburq sakinləri dost Azərbaycan Respublikası xalqının ağrı və kədərini bölüşürlər".

## *Dmitri PESKOV:* "Araşdırmanın nəticələrindən əvvəl fərziyyələr irəli sürmək düzgün olmaz"

"Kreml Aktau yaxınlığında təyyarə qəzasının səbəbləri ilə bağlı fərziyyə irəli sürməyəcək".

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında bildirib.

"Hazırda araşdırma aparılır, hər hansı aviasiya hadisəsi ixtisaslaşmış aviasiya orqanları tərəfindən araşdırılmalıdır. Bu araşdırmanın sonunu gözləmək lazımdır", - deyə Kreml nümayəndəsi bildirib.

"Araşdırmanın nəticələrindən əvvəl hər hansı fərziyyə irəli sürmək düzgün olmazdı. Biz də təbii ki, bunu edə bilmərik və bunu heç kim etməməlidir", - deyə o vurğulayıb.

Peskov xatırladıb ki, MDB-nin qeyri-rəsmi sammiti zamanı Rusiya Prezidenti Vladimir Putin həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verib, xəsarət alanların tezliklə sağalmasını diləyib.

## *Qazaxıstanın xarici işlər nazirinin müavini:* "Bu faciə bizim ümumi ağrımızdır"

"Bu faciə bizim ümumi ağrımızdır, çünki Aktau yaxınlığındakı təyyarə qəzasında həlak olanlar arasında Qazaxıstan vətəndaşları da var".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Qazaxıstanın xarici işlər nazirinin müavini Roman Vasilenko bildirib.

"Biz ümid edirik ki, yaralılar tezliklə tam sağalıb ailələrinə qayıda biləcəklər. Biz bunun üçün əlimizdən gələni edirik", - deyə o vurğulayıb.

Nazir müavini Aktauda yardım göstərən, o cümlədən qan verən qazaxıstanlılara minnətdarlığını bildirib, həmçinin Fövqəladə Hallar, Səhiyyə nazirliklərinin və yerli administrasiyanın operativ fəaliyyətini qeyd edib.

Roman Vasilenko faciə ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verərək deyib: "Biz birlikdə kədərlənirik".

## *Baş konsul:* "Təyyarə qəzasında həlak olanların kimliyi müəyyənləşdirilir"

"Azərbaycan Hava Yolları"nın təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olan şəxslərin cəsədləri tanınmaz vəziyyətdə olduqları üçün onların kimliyinin müəyyənləşdirilmə prosesi aparılır.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycanın Aktaudakı baş konsulu Ayxan Süleymanlı bildirib.

O qeyd edib ki, cəsədlərin tanınması prosesi bir qədər zaman alacaq. Həlak olanların kimliyi müəyyənləşdirildikdən sonra ölkələrinə göndəriləcək. Cəsədlərin kimliyinin müəyyənləşdirilməsi üçün Azərbaycandan Aktauya gələn Səhiyyə Nazirliyinin və Baş Prokurorluğun ekspert qrupu araşdırma aparır. Cəsədlərin tanınması üçün yaxınlarının DNK analizinə ehtiyac olacaq. Həlak olan 26 Azərbaycan vətəndaşının 3-ü tanınan haldadır.

Bundan başqa A.Süleymanlı qeyd edib ki, hadisə baş verən andan etibarən Qazaxıstanın müvafiq rəsmi qurumları operativ və peşəkar formada fəaliyyət göstərir. Yaralıların xəstəxanaya təcili və təhlükəsiz çatdırılmasının ölüm hallarını minimuma saldığını vurğulayan baş konsul əlavə edib: "Qazax xalqı da bu hadisəyə biganə yanaşmır. İnsanlar yaralılara könüllü qan verirlər. Bundan başqa konsulluq qarşısına gül dəstələrinin düzülməsi yerli əhalinin öz təşəbbüsüdür".

Ayxan Süleymanlı bildirib ki, hadisə baş verən andan Aktaudakı Türkiyə, İran, Özbəkistan və Türkmənistanın Baş konsulları Azərbaycana dəstək nümayiş etdirirlər.

## *Türkiyənin baş konsulu:* "Azərbaycana və Qazaxıstana istənilən köməyə hazırıq"

"Azərbaycan Hava Yolları"nın təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində baş verən faciəli hadisəyə görə Türkiyə və Aktauda fəaliyyət göstərən İran, Özbəkistan və Türkmənistan baş konsulları Azərbaycanın yanındadırlar.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Türkiyənin Aktaudakı baş konsulu Sabri Alptekin bildirib.

O qeyd edib ki, hazırda Türkiyənin Baş Konsulluğu aparılan araşdırma ilə bağlı azərbaycanlı həmkarı ilə əlaqə saxlayır. Sabri Alptekinin sözlərinə görə, hadisə baş verəndən 8 dəqiqə sonra Qazaxıstanın müvafiq qurumları hadisəyə təcili müdaxilə ediblər. Nəticədə itki sayı az olub.

"Dünən xəstəxanadakı yaralıların vəziyyəti ilə maraqlandım. Eyni zamanda, Azərbaycandan Aktauya gələn nazirlərlə görüşdüm", - deyə o qeyd edib.

Türkiyə baş konsulu bildirib ki, ölkəsi qardaş dövlət olaraq istər Azərbaycana, istərsə də Qazaxıstana lazımi köməyə hazırdır.

# Təyyarə qəzası nəticəsində həlak olanların xatirəsi xarici ölkələrdə anılıb














"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar elan olunmuş matəm günü səbəbindən ölkəmizin Çindəki səfirliyində Dövlət bayrağı yarıya qədər endirilib. Səfirlik Çinin Xarici İşlər Nazirliyinə, BMT-nin qurumlarının ofislərinə, Şanxay Əməkdaşlıq Təşkilatının katibliyinə, Ərəb Dövlətləri Liqasının Çindəki təmsilçiliyinə, Pekindəki diplomatik nümayəndəliklərə nota göndərərək, matəm ilə əlaqədar dekabrın 26-27-də səfirlikdə xatirə kitabının açıldığını bildirib. Bundan başqa, səfirliyin Çində populyar olan sosial şəbəkə hesablarında hadisə ilə əlaqədar paylaşım edilib.

Qeyd edək ki, "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğraması nəticəsində çox sayda insan həyatını itirib və ya xəsarət alıb. Xarici ölkələrin Çindəki diplomatik nümayəndəlikləri Azərbaycan səfirliyinə gələrək başsağlığı verir, xatirə kitabına ürək sözlərini yazırlar.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları"nın təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar ölkəmizin Aktaudakı baş konsulluğunda anım tədbiri keçirilib. Anım mərasimində Türkiyənin, İranın, Özbəkistanın və Türkmənistanın baş konsulları, Qazaxıstanın ictimai təşkilatlarının nümayəndələri, yerli sakinlər iştirak ediblər.

Anım tədbirinin iştirakçıları baş konsulluqdakı xatirə kitabına ürək sözlərini yazıblar. Bundan başqa, xarici ölkələri təmsil edən baş konsullar bu faciəli hadisə ilə əlaqədar başsağlığı veriblər.

Daha sonra qəzada həlak olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları" QSC-yə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsini anmaq məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, ölkəmizdə matəm elan edilməsi ilə əlaqədar ölkəmizin Moskvadakı səfirliyinin binasında Dövlət bayrağımız endirilib.

Moskva sakinləri səfirliyimizin binası qarşısına gül dəstələri gətirir, həlak olanların xatirəsini ehtiramla yad edirlər.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğraması nəticəsində həyatlarını itirənlərin xatirəsi İstanbulda da yad edilir. Faciə qurbanlarına ehtiram məqsədilə İstanbulda, eləcə də Türkiyənin fərqli bölgələrində yaşayan və fəaliyyət göstərən həmvətənlərimiz bu gün səhər saatlarından etibarən AZAL-ın İstanbuldakı ofisi qarşısına gələrək əklillər və gül dəstələri qoyurlar.

Ziyarətçilər arasında Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasına daxil olan dərnəklərin nümayəndələri, İstanbulda fəaliyyət göstərən mədəniyyət xadimləri və digərləri də var.

AZAL-ın İstanbuldakı ofisinin uçuş məlumatlandırma ekranında qəzaya uğrayan təyyarənin reys nömrəsi və nəzərdə tutulan səfər istiqaməti qeyd edilib.

Xarici dövlətlərin diplomatik nümayəndəliklərinin, siyasi partiyaların, ictimai təşkilatların nümayəndələri, qardaş ölkənin sakinləri dekabrın 26-da səhər saatlarından etibarən Azərbaycanın Ankaradakı səfirliyinə gələrək, başsağlığı kitabında öz ürək sözlərini yazırlar.

Səfirliyin əməkdaşları təyyarə qəzasında həlak olanların xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov səfirliyin divarları önünə əklil qoyan Türkiyənin bir qrup siyasətçisi və ictimaiyyət nümayəndələrini diplomatik missiyanın qapısında qarşılayıb.

Faciə qurbanlarının xatirəsinə dualar oxunub, Türkiyə-Azərbaycan həmrəyliyi vurğulanıb.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar elan olunmuş matəm günü səbəbindən ölkəmizin Moldovadakı səfirliyində Dövlət bayrağı yarıya qədər endirilib.

Matəmlə əlaqədar dekabrın 26-27-də səfirlikdə xatirə kitabı açılıb. Xarici ölkələrin Moldovadakı diplomatik nümayəndəlikləri Azərbaycan səfirliyinə gələrək başsağlığı verir, xatirə kitabına ürək sözlərini yazırlar.

Bundan başqa, Moldova sakinləri, diaspor nümayəndələri, xarici ölkələrin diplomatik nümayəndələri faciə ilə bağlı səfirliyin önünə tər çiçəklər düzürlər.

Xatırladaq ki, dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar olaraq dekabrın 26-da Azərbaycanda matəm elan edilib.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğraması nəticəsində həyatlarını itirənlərin xatirəsi Londonda yad edilir. Matəmlə əlaqədar Azərbaycanın Londondakı səfirliyinin binasında Dövlət bayrağı yarıya qədər endirilib və dekabrın 26-27-də səfirlikdə xatirə kitabı açılıb. London sakinləri, diasporumuzun üzvləri səfirliyimizin binası qarşısına gül dəstələri gətirir, həlak olanların xatirəsini ehtiramla yad edirlər.

Xarici ölkələrin Londondakı diplomatik nümayəndəlikləri Azərbaycan səfirliyinə gələrək başsağlığı verir, xatirə kitabına ürək sözlərini yazırlar.

Xatırladaq ki, dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar olaraq dekabrın 26-da Azərbaycanda matəm elan edilib.

❖ ❖ ❖

Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması səbəbindən elan olunmuş matəm günü ilə əlaqədar ölkəmizin İtaliyadakı səfirliyində Dövlət bayrağı yarıya qədər endirilib, xatirə kitabı açılıb.

Səfirlik tərəfindən İtaliyanın dövlət qurumlarına, mənzil qərargahı Romada yerləşən təşkilatlara, eləcə də diplomatik nümayəndəliklərə nota göndərilib. Dekabrın 26-27-də matəm günü ilə əlaqədar səfirlikdə xatirə kitabının açıldığı bildirilib.

İtaliyanın dövlət qurumlarının nümayəndələri və digər ölkələrin Romadakı diplomatik korpusun üzvləri Azərbaycan səfirliyinə gələrək başsağlığı verir, xatirə kitabına ürək sözlərini yazırlar.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları" (AZAL) QSC-yə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin Bakı-Qroznı reysini yerinə yetirərkən qəzaya uğraması nəticəsində həlak olanların xatirəsini yad etmək məqsədilə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən matəm elan olunmuş, dekabrın 26-da ölkəmizin Sankt-Peterburqdakı baş konsulluğunda Dövlət bayrağımız endirilib və başsağlığı kitabı açılıb. Sankt-Peterburq şəhərində işgüzar səfərdə olan Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev, baş konsul vəzifəsini icra edən Anar Yusifzadə və baş konsulluğun heyəti həlak olanların əziz xatirəsini birdəqiqəlik sükutla yad edib, şəkilləri önünə gül dəstələri düzüblər.

Sankt-Peterburqun qubernatoru Aleksandr Beqlov, Rusiya Xarici İşlər Nazirliyinin Sankt-Peterburq üzrə nümayəndəsinin müavini Andrey Relkin, Türkiyənin baş konsulu Özgün Talu, bu şəhərdə Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri Vaqif Məmişov, Sankt-Peterburq hökumətinin üzvləri, diplomatik korpusun rəhbərləri, Azərbaycan diasporunun nümayəndələri, vətəndaşlarımız və soydaşlarımız baş konsulluğa gələrək faciə qurbanlarının əziz xatirəsini ehtiramla anıb, başsağlığı kitabına ürək sözlərini yazıblar.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar elan olunmuş matəm günündə ölkəmizin Fransadakı səfirliyində Dövlət bayrağı endirilib. Səfirlik Fransadakı aidiyyəti qurumlara, eləcə də bu ölkədəki diplomatik nümayəndəliklərə nota göndərib. Matəmlə əlaqədar dekabrın 26-27-də səfirlikdə xatirə kitabı açılıb. Həmçinin səfirliyin sosial şəbəkə hesablarında hadisə ilə əlaqədar paylaşım edilib.

Xarici ölkələrin Fransadakı diplomatik nümayəndəlikləri, eləcə də Parisdə olan tələbələr Azərbaycan səfirliyinə gələrək başsağlığı verir, xatirə kitabına ürək sözlərini yazırlar.

Azərbaycanın dostları olan Fransanın sabiq deputatları, ölkəmizdə çalışmış sabiq səfirlər sosial şəbəkə hesablarında bu ağır gündə xalqımıza və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmalarını arzulayıblar.

Xatırladaq ki, "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğraması nəticəsində çox sayda insan həyatını itirib və ya ağır xəsarət alıb.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar elan olunmuş matəm günü ilə bağlı ölkəmizin Serbiyadakı səfirliyində Dövlət bayrağı yarıya qədər endirilib, xatirə kitabı açılıb. Səfirlik tərəfindən dekabrın 26-27-də xatirə kitabının açıldığı elan olunub, sosial şəbəkə hesablarında hadisə ilə əlaqədar paylaşımlar edilib.

Serbiyanın Xarici İşlər Nazirliyinin dövlət katibi (nazir müavini) Damyan Yoviç və Serbiyada fəaliyyət göstərən xarici ölkə səfirliklərinin rəhbərləri və nümayəndələri Azərbaycan səfirliyinə gələrək başsağlığı verir, xatirə kitabına ürək sözlərini yazırlar.

Bundan başqa, Serbiya vətəndaşları səfirliyin önünə gül dəstələri düzməkdə davam edirlər.

❖ ❖ ❖

Dekabrın 25-də "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Aktau yaxınlığında qəzaya uğraması ilə əlaqədar Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığındakı səfirliyində başsağlığı kitabı açılıb. İordaniya Nümayəndələr Palatasının spikeri Əhməd Safadi səfirliyə gəlib və bu ağır gündə İordaniya dövləti və xalqı adından Azərbaycan hökuməti və xalqına başsağlığı verib. O, Krallığın ölkəmizə dəstək verməyə daim hazır olduğunu ifadə edib.

Bundan əlavə, səfirliyə gələn İordaniya hökumətinin hazırkı və sabiq üzvləri, ölkədə akkreditə olunmuş diplomatik missiyaların nümayəndələri, işgüzar dairələrin təmsilçiləri, o cümlədən İordaniyada yaşayan diasporumuzun üzvləri Azərbaycan dövləti və xalqına başsağlığı veriblər.

Baş vermiş hadisə ilə bağlı məlumat yerli KİV və sosial media şəbəkələrində geniş işıqlandırılıb.

❖ ❖ ❖

Xaricdəki Azərbaycan evlərində "Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həyatını itirən insanların xatirəsinə anım guşələri yaradılıb. Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, Avstriya, Finlandiya, İspaniya, Kanada, Macarıstan, Yunanıstan və digər ölkələrdə yaşayan soydaşlarımız həmin ölkələrdəki Azərbaycan evlərinə gələrək anım guşəsinə qərənfillər düzür, şam yandırır, qəza nəticəsində həlak olanları hörmətlə anır, yaralananlara şəfa arzulayırlar.

Xaricdə yaşayan azərbaycanlılar hər zaman olduğu kimi, belə bir faciənin baş verdiyi gündə də xalqımızın və dövlətimizin yanında olduqlarını nümayiş etdirirlər.

Qeyd edək ki, hazırda dünyanın 18 ölkəsində 29 Azərbaycan Evi fəaliyyət göstərir. Azərbaycan evləri həqiqətlərimizin dünyaya çatdırılmasında, soydaşlarımızın tariximizi və mədəniyyətimizi öyrənmələrində ciddi rol oynayan, bayram və hüzn günlərində birliyimizi nümayiş etdirən məkanlardır.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar elan olunmuş matəm günü səbəbindən ölkəmizin Ukraynadakı səfirliyində dövlət bayrağımız yarıya qədər endirilib. Matəmlə əlaqədar dekabrın 26-27-də səfirlikdə xatirə kitabı açılıb. Xarici ölkələrin Ukraynadakı diplomatik nümayəndəlikləri Azərbaycan səfirliyinə gələrək başsağlığı verir, xatirə kitabına ürək sözlərini yazırlar.

Bundan başqa Ukrayna sakinləri, diaspor üzvləri, xarici ölkələrin diplomatik nümayəndələri faciə ilə bağlı səfirliyin önünə tər çiçəklər düzürlər. Səfirliyin önündə, həmçinin qəzanın görüntülərinə dair fotosərgi də nümayiş etdirilir.

Matəm günü ilə bağlı GUAM Katibliyinin Kiyevdə yerləşən binasında da Azərbaycanın Dövlət bayrağı endirilib.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması səbəbindən elan olunmuş matəm günü ilə əlaqədar Azərbaycanın ABŞ-dəki səfirliyində dövlət bayrağı yarıya qədər endirilib.

Səfirlikdə xatirə kitabı açılıb, səfirliyin sosial şəbəkələrdəki hesablarında paylaşımlar edilib.

Səfir Xəzər İbrahim və səfirliyin heyəti təyyarə qəzasında həlak olanların xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Gün ərzində xarici dövlətlərin ABŞ-dəki diplomatik nümayəndələri Azərbaycan səfirliyinə gələrək başsağlığı verib, xatirə kitabına ürək sözlərini yazıblar.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı istiqamətində J2-8243 nömrəli reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar Avstriyanın Zalsburq şəhərindəki Azərbaycan Evində xatirə guşəsi yaradılıb.

Avstriya Azərbaycanlıları Cəmiyyəti və Zalsburq Azərbaycan Evi adından yayılan mətbuat açıqlamasında həyatını itirənlərin ailələrinə başsağlığı verilib, qəzada xəsarət alanlara isə tezliklə şəfa arzulanıb: "Bütün dualarımız bu faciəli hadisədən zərər çəkmiş qardaş və bacılarımızladır. Bu kədərli zamanda bütün zərərçəkmiş insanların yaxınlarına səbir və başsağlığı diləyirik".

❖ ❖ ❖

Dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" (AZAL) QSC-yə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı səbəbindən dekabrın 26-da Azərbaycanda matəm günü elan olunması ilə bağlı ölkəmizin Küveyt Dövlətindəki səfirliyində Dövlət bayrağı yarıya qədər endirilib və xatirə kitabı açılıb.

Səfirlikdən bildirilib ki, Küveyt Dövlətinin hakim ailəsinin üzvləri, Küveytin Xarici İşlər Nazirliyinin və digər dövlət qurumlarının nümayəndələri, bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri və diplomatları, Küveyt ictimaiyyətinin tanınmış simaları, habelə yerli media nümayəndələri Azərbaycan Respublikasının səfirliyinə gələrək başsağlığı verir, xatirə kitabına ürək sözlərini yazırlar.

❖ ❖ ❖

Bakı-Qroznı reysi ilə uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi Rumıniyada ehtiramla anılır

Bakı-Qroznı reysi ilə uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olan insanların xatirəsini anmaq üçün Rumıniyada yaşayan soydaşlarımız Azərbaycanın bu ölkədəki səfirliyinə gül dəstələri gətirirlər.

Səfirlikdə həlak olanların xatirəsini yad etmək üçün açılan başsağlığı kitabına Rumıniyada akkreditə olan diplomatik korpusun nümayəndələri ürək sözlərini yazırlar.

❖ ❖ ❖

Misirdə fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətində "Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həyatını itirən insanların xatirəsinə anım guşəsi yaradılıb.

Cəmiyyətdən bildirilib ki, Misirdə yaşayan soydaşlarımız, cəmiyyətdə təhsil alan misirli tələbələr gələrək anım guşəsinə güllər düzüb, qəza nəticəsində həlak olanların xatirəsini hörmətlə anıb, yaralananlara şəfa arzulayıblar. Anım günü həlak olanların ruhlarına Qurani-Kərim oxunub.

Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Seymur Nəsirov çıxış edərək bildirib ki, Misir ictimaiyyətinin nümayəndələri də zəng edərək və cəmiyyətə gələrək öz başsağlıqlarını bildiriblər.

*AZƏRTAC*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 538 **QƏRAR** Bakı şəhəri, 25 dekabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 757 (Cild I); 2024, № 7, maddə 910) ilə təsdiq edilmiş "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissə üzrə:

1.1. 3.8-ci bənddə "Azərsutikinti" Xəstəxanası" sözləri "Nizami Tibb Mərkəzi" sözləri ilə əvəz edilsin;

1.2. 3.9-cu bənddə "Neyrocərrahlıq" sözü "Respublika Neyrocərrahiyyə" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 6.5-ci bənd əlavə edilsin:

"6.5. Yeni Klinika".

3. 7-ci hissə üzrə:

3.1. 7.75-ci bənddə "6 nömrəli Birləşmiş Şəhər Xəstəxanası" sözləri "Binəqədi Tibb Mərkəzi" sözləri ilə əvəz edilsin;

3.2. 7.98-ci bənddə "2 nömrəli Şəhər Klinik Xəstəxanası" sözləri "Xətai Tibb Mərkəzi" sözləri ilə əvəz edilsin;

3.3. 7.99-cu bənddə "3 nömrəli Şəhər Klinik Xəstəxanası" sözləri "Sabunçu Tibb Mərkəzi" sözləri ilə əvəz edilsin;

3.4. 7.100-cü bənddə "5 nömrəli Şəhər Klinik Xəstəxanası" sözləri "Nərimanov Tibb Mərkəzi" sözləri ilə əvəz edilsin.

4. Aşağıdakı məzmunda 58.1-1-ci bənd əlavə edilsin:

"58.1-1. Siyəzən Rayon Mərkəzi Xəstəxanası".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 536 **QƏRAR** Bakı şəhəri, 24 dekabr 2024-cü il

## "Sazişlərin rəqabət qanunvericiliyinə uyğunluğunun təsdiqlənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Sazişlərin rəqabət qanunvericiliyinə uyğunluğunun təsdiqlənməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 537 **QƏRAR** Bakı şəhəri, 24 dekabr 2024-cü il

## "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 39.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, müraciət edilməsi və müraciətə baxılma Qaydası"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 39.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, müraciət edilməsi və müraciətə baxılma Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 201 nömrəli Qərarı(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 811 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 543 **QƏRAR** Bakı şəhəri, 26 dekabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 488 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 488 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1823 (Cild I) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3-cü bəndə "yerli bölmələri" sözlərindən sonra "və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi" sözləri əlavə edilsin.

2. 4.1-ci bəndə "Agentliyinə" sözündən sonra "və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# *AZAL:* Təyyarə qəzasında həlak olanların hər birinin ailəsinə 40 min manat kompensasiya ödəniləcək

"Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin Müşahidə Şurasının qərarına əsasən, dekabrın 25-də Qazaxıstan Respublikası ərazisində qəzaya uğramış "Azərbaycan Hava Yolları" sərnişin aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsində olan və xəsarət alanların hər birinə 20 min manat, vəfat edənlərin hər birinin ailəsinə isə 40 min manat kompensasiya ödənilməsi müəyyən edilib.

Bu barədə AZƏRTAC-a "Azərbaycan Hava Yolları" QSC-dən bildirilib. Bununla yanaşı, bütün sərnişinlər Azərbaycan Respublikası qanunvericiliyinə və qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq tətbiq edilən müvafiq sığorta ödənişi alacaqlar.





# *Pilotun qohumu:* "Kşnyakin İqorun xatirəsi ailəsinin və dostlarının qəlbində daim yaşayacaq"

"Kşnyakin İqor dəfələrlə səfərlərə çıxan və qayıdan, hər zaman işinə sadiqliyi və peşəkarlığı ilə seçilən böyük təcrübəyə malik bir pilot idi. O, mükəmməl bir insan idi. Hər zaman ailəsi ilə sıx əlaqədə olur, onlara dəstək verirdi. Onun işinə necə bağlı olduğunu hamımız bilirdik. Gediş-gəlişi adi hal idi, amma bu dəfə fərqli oldu. Əfsuslar olsun ki, bu səfəri son oldu".



AZƏRTAC xəbər verir ki, bu sözləri Bakı-Qroznı reysi zamanı baş verən təyyarə qəzasında həlak olan pilot Kşnyakin İqorun qohumu Nicat Bağırov jurnalistlərə açıqlamasında söyləyib.

Qohumu bildirib ki, mərhum öz həyatını tamamilə işinə və ailəsinə həsr etmişdi: "Üç gün əvvəl danışmışdıq. Hər zaman olduğu kimi səfərindən bəhs edirdi. Hamı onun necə mükəmməl insan olduğunu təsdiqləyir. Bu böyük insanın itkisinin yaratdığı boşluğu doldurmaq çətindir, lakin onun xatirəsi ailəsinin və dostlarının qəlbində daim yaşayacaq. Allah rəhmət eləsin".

# *Zöhrab BABAYEV:* "Bu hadisədə yalnız övladımı itirməmişəm, eyni zamanda bütün qurbanların ağrısını və acısını hiss edirəm"

"Mən oğlum Anarla sonuncu dəfə saat 11-12 radələrində telefonla danışmışdım. O, təyyarənin uçuş hazırlıqlarından danışdı və qeyd etdi ki, hava limanında qeydiyyatdan keçib, uçmaq üçün hazırlaşır. Oğlum demişdi ki, təyyarədən enən kimi mənə zəng edəcək. Səhər saatlarında isə mənə xəbər çatdırıldı ki, təyyarə qəzası baş verib. Təxminən bir neçə saat əvvəl danışdığım övladımın bu hadisədə həlak olduğunu eşidəndə böyük sarsıntı keçirdim".



AZƏRTAC xəbər verir ki, bu sözləri Bakı-Qroznı reysi zamanı baş verən təyyarə qəzasında həlak olan Anar Babayevin atası Zöhrab Babayev jurnalistlərə açıqlamasında söyləyib.

O hadisədən sarsıntı keçirdiyini bildirərək dərin hüznlə təəssüratlarını bölüşüb: "Dünən Prezident İlham Əliyevin qəza qurbanlarının ailələrinə və yaralıların yaxınlarına göstərilən diqqət və dəstək haqqında açıqlamasını eşitdim. Bundan sonra dərhal əlaqədar qurumlara və qəza ilə bağlı məlumat almaq üçün müxtəlif yerlərə zəng etdim. Ailə üzvlərim ilə birlikdə çox çətin anlar yaşayırıq. Qəzada həyatını itirənlərin bəzilərinin yaxınları ilə də tanış oldum. Bu hadisədə yalnız övladımı itirməmişəm, eyni zamanda bütün qurbanların ağrısını və acısını hiss edirəm. Biz övladımızın nəşinin gətirilməsini gözləyirik". Mərhumun atası Z.Babayev təyyarə qəzasında həyatını itirənlərə Allahdan rəhmət, yaralananlara isə tezliklə şəfa diləyib.

# Aktauda qəzaya uğramış təyyarədən sağ çıxan sərnişin stüardessanın şücaətindən danışıb

"Azərbaycan Hava Yolları" QSC-yə məxsus təyyarənin Aktauda qəzaya uğraması nəticəsində sağ qalan yekaterinburqlu sərnişin Sübxonkul Rəhimov TASS agentliyinə müsahibəsində stüardessanın şücaətindən danışıb. O, stüardessanın kritik məqamda əzm və cəsarət nümayiş etdirərək üzərinə düşən vəzifəni mükəmməl şəkildə yerinə yetirdiyini vurğulayıb. AZƏRTAC bu barədə TASS agentliyinə istinadla xəbər verir.



Xatırladaq ki, "AZAL"a məxsus təyyarənin qəzaya düşməsi nəticəsində stüardessa Hökumə Əliyeva həlak olub.

"Pilotlara daha yaxın olan stüardessa, xüsusilə qadın üçün vəziyyətin dəhşətli olmasına baxmayaraq dözdü. O, əzm göstərdi. O, belə bir vəziyyətdə yerinə yetirməli olduğu bütün funksiyaları, vəzifələri yerinə yetirirdi", - deyə Rəhimov bildirib.

"Mən onun göstərişinə itaət etdim və kreslonun söykənəcəyinə sıxıldım", - deyə agentliyin həmsöhbəti əlavə edib.

Sərnişin "stüardessanın öz işini mükəmməl şəkildə yerinə yetirdiyini" vurğulayıb. "Qadın sənə "sakit olun" deyəndə - yadımdadır, oradakı kişi nəsə coşurdu - əlbəttə ki, sakit qalmaq lazımdır. O, əsasən Azərbaycan dilində danışırdı və insanları sakitləşdirirdi", - deyə agentliyin həmsöhbəti bildirib.

# *Höccət BABAYEV:* "Onunla son danışığımızı həmişə xatırlayacam"



"Qardaşımın kədərli xəbərini aldıq. Bu gün bizə məlumat verildi ki, onun şəxsiyyəti müəyyənləşdirilib. Cəsədinin gətirilməsini gözləyirik. Onu itirmək bizim üçün çox ağırdır".

AZƏRTAC xəbər verir ki, bu sözləri Bakı-Qroznı reysi zamanı baş verən təyyarə qəzasında həlak olan 34 yaşlı Anar Babayevin qardaşı Höccət Babayev jurnalistlərə açıqlamasında söyləyib.

H.Babayev qeyd edib ki, qardaşı Anar 23 ilə yaxındır işi ilə əlaqədar Qroznıya gedib-gəlirdi: "O, tez-tez Qroznıya gedirdi. Bu dəfə də işi ilə bağlı getmişdi. Onunla əlaqə saxladım, danışdım. Hər şey yaxşı idi. Amma təəssüf ki, bu, mənim qardaşımla sonuncu danışığımız oldu".

Höccət Babayev dərin hüznlə qardaşının nəşinin Vətənə gətirilməsini gözlədiyini ifadə edərək digər həlak olan insanların da ailələrinə səbir diləyib.

# *Pilot İqorun dostu:* "Onun itkisi təkcə ailəsi üçün deyil, həm də aviasiya sahəsi üçün böyük boşluq olacaq"

"İqor Kşnyakin çox bacarıqlı pilot və nümunəvi dost idi. Onun itkisi təkcə ailəsi üçün deyil, həm də aviasiya sahəsi üçün böyük bir boşluq olacaq. Hazırda ailəsi yas mərasiminə hazırlaşır və bu, hamımız üçün çox çətin bir dövrdür".



AZƏRTAC xəbər verir ki, bu sözləri Bakı-Qroznı reysi zamanı baş verən təyyarə qəzasında həlak olan pilot İqor Kşnyakinin dostu İsfəndiyar Müslimov jurnalistlərə açıqlamasında söyləyib.

Onun sözlərinə görə, baş verən təyyarə qəzasında kapitan pilotun həlak olduğu təsdiqlənib, yaxınları və dostları hadisə ilə bağlı dərin kədər hissi yaşayırlar. "Pilotun ailəsi onun itkisi ilə bağlı mənəvi cəhətdən sarsılıb. Allah bütün həlak olanlara rəhmət eləsin", - deyə İ.Müslimov əlavə edib.

# Gün gələcək, Qərbi Azərbaycandan olan soydaşlarımız əzəli torpaqlarına qayıdacaqlar

# Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının müəllifi İlham Əliyevdir

**Şərqlə Qərbin qovuşağında körpü rolunu oynayan Azərbaycanda son illər iqtisadi, siyasi, mədəni, ən nəhayət, insanların sosial şəraitinin yaxşılaşdırılmsına, habelə təhlükəsizliyinə dövlət səviyyəsində zəmin yaradan layihələr, tədbirlər həyata keçirilir. Ötən əsrin əvvəllərindən bu yana Cənubi Qafqazda, xüsusən də Ermənistanla sərhəd bölgələrində ermənilərin işğalçılıq ənənələrinə son qoyan, 2020-ci il sentyabrın 27-də başlanan və 44 gündən sonra noyabrın 8-də Zəfər qələbəsi ilə başa çatan Vətən müharibəsinin baş qəhrəmanı isə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan möhtərəm İlham Əliyevdir.**



Bu tarixi Zəfər işığında işğaldan azad edilmiş bölgələrimizdə bərpa, quruculuq və tikinti işləri, eləcə də Qarabağa Böyük qayıdış geniş vüsət alıb. Qısa müddət ərzində 2444 ailə - 9458 nəfər doğma yurduna geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 268 ailə (987 nəfər) Şuşa şəhərində, 46 ailə (179 nəfər) Xocalı şəhərində, 237 ailə (912) Cəbrayıl şəhərində, Xocalı rayonunun Ballıca kəndində 27 ailə (152 nəfər) məskunlaşıb və bu qayıdış davam edir. Yeni il ərəfəsində onlarla qarabağlı təqvim yenilənməsini öz doğma yurd-yuvalarında qeyd edəcək.

Ötən əsrin müəyyən dövrlərində Qərbi Azərbaycandakı dədə-baba yurdlarından zorla qovulmuş, deportasiyalara məruz qalmış insanlar da belə bir günü həsrətlə gözləyirlər. Xalqımız, xüsusən də vaxtilə respublikamızın bölgələrinə, kənd və qəsəbələrinə pənah aparmış qərbi azərbaycanlılar bu problemin reallığa çevrilməsində - tarixi ədalətin bərpa olunmasına və tapdanmış hüquqlarına yardımçı ola biləcək bir liderə - Prezident, Ali Baş Komandan İlham Əliyevə ümid bəsləyirlər.

44 günlük Vətən müharibəsində işğaldan azad edilmiş torpaqlarımızda qazanılmış zəfərdən sonra dövlət başçısının məqsəd və məramı qərbi azərbaycanlıların doğulub boya-başa çatdıqları kənd, qəsəbə, şəhərlərə qayıdışını təmin etmək, soydaşlarımızı öz doğma yurd-yuvalarına qovuşdurmaqdır. Cənab İlham Əliyev bunun üçün Qərbi Azərbaycan ziyalılarını, ağsaqqal və ağbirçəklərini bir araya gətirən Qərbi Azərbaycan İcmasının yaradılmasını gündəmə gətirmişdi. Prezidentin tapşırığına əsasən, əvvəllər Bakıda Şuşa Şəhər İcra Hakimiyyətinin və "Qarabağa dönüş" İctimai Birliyinin yerləşdiyi bina icmanın istifadəsinə verildikdən sonra əsasən təmir edilmiş, zəruri avadanlıqlarla təchiz olunmuşdu. Ümumi sahəsi 1280 kvadratmetr olan dördmərtəbəli binada 23 iş otağı, iclas və konfrans zalları, habelə müxtəlif yardımçı otaqlar mövcuddur.

2022-ci il dekabrın 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olmuş və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşmüşdür. Səmimi keçən bu görüş zamanı dövlət başçısı nəinki Qərbi Azərbaycandan olan qaçqınların, bütün dünya azərbaycanlılarının ürəyində illərlə qövr edən nisgilə, istəyə toxunaraq demişdir: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

Qərbi Azərbaycan İcması fəaliyyətə başladığı ilk dövrdən dünya siyasətində fəal rol oynayır. Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının, İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Müraciətin yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi üçün böyük uğurdur. Sözügedən müraciətin BMT rəsmi sənədi kimi yayılması ilə 190-dan çox ölkə bu məsələ barədə xəbərdar olub. İlham Əliyevin ideyalarına dəstək kimi respublikamızın rayon mərkəzlərində və kəndlərində icmanın özəkləri yaradılıb. Bu ilin oktyabr ayında "Özbəkistanda yaşayan Qərbi Azərbaycanlılar" İctimai Birliyi fəaliyyətə başlayıb. Birliyə əslən Qərbi Azərbaycanın Basarkeçər rayonunun Bala Məzrə kəndindən olan İlham Abdullayev rəhbərlik edir. Özbəkistanda yaşayan, əslən Qərbi Azərbaycandan olan Vidadi Qurbanov, İlham Abdullayev, Qalib Müslümov və digərləri Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı yürütmüş olduğu siyasəti tam dəstəkləyirlər, onların dünyanın harasında yaşamasından asılı olmayaraq, öz ata-baba torpaqlarına qayıtmaq amalı ətrafında sıx birləşmələrinin vacibliyini yüksək dəyərləndirirlər. Qonşu və qardaş ölkə olan Türkiyədə bu gün təxminən 1,5 milyon nəfərdən çox qərbi azərbaycanlı yaşayır. Qərbi Azərbaycan İcmasının ideya xəttini və fəaliyyətini dəstəkləyən Türkiyənin İzmir şəhərində Qərbi Azərbaycan İcmasının (QAİ) Türkiyə ofisinin açılışı olub. Türkiyənin dövlət rəsmilərinin, vilayət rəhbərliyinin, ziyalıların və İzmirdə yaşayan azərbaycanlıların iştirakı ilə təşkil olunan mərasimdə Ümummilli Lider Heydər Əliyevin xatirəsi ehtiramla yad edilib.

Xatırladaq ki, Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımlarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatdırılmışdır. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə müstəsna olaraq ermənilər yaşayırlar.

Qərbi Azərbaycan İcması 1988-1991-ci illərdə indiki Ermənistandan qovulmuş 50 mindən çox ailənin yarıdan çoxuna dəymiş ziyanı hesablamış, hazırda bu işlər dəqiqliyi ilə davam etdirilir. Yerlərdə ictimaiyyət nümayəndələri ilə keçirilən görüşlərdə Ermənistandan zorla qovulan hər bir ailə üzvü və sənədləri ilə maraqlanır, icmanın Qayıdış Konsepsiyasının qayda və tövsiyələri ilə onları tanış edirlər. Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılır. Artıq 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması üzərində də ciddi iş aparır. Xatırladaq ki, sovet dönəmində erməni daşnakları məqsədli şəkildə mədəniyyətimizin, zəngin irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin guya ermənilərə mənsub olduğunu iddia etməyə çalışıblar. Eyni zamanda ermənilər tərəfindən azərbaycanlıların mənfi obrazının formalaşdırılması cəhdləri də unudulmayıb.

Xalqımıza qarşı soyqırımı etnik nifrət aşılayan irqçi ideologiya zəminində sistemli şəkildə həyata keçirilib və tarixi Azərbaycan torpaqlarının demək olar ki, bütün hissələrində törədilib. 1905-ci ildən intensivləşməyə və açıq forma almağa başlamış bu soyqırımı siyasəti Azərbaycanın qərb hissəsində xüsusilə amansız həyata keçirilib. Ermənistan ordusu 1918-1920-ci illərdə İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Sürməli, Şərur və digər bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədib və etnik təmizləmə aparıb.

Yüz minlərlə azərbaycanlının öldürüldüyü soyqırımı aktları nəticəsində İrəvan quberniyasında vaxtilə əhalinin 80 faizindən çoxunu təşkil etmiş azərbaycanlılar artıq 1921-ci ildə həmin ərazidə etnik azlıq təşkil etməyə başlamışdır. 1948-1952, 1987-1991-ci illərdə aparılmış etnik təmizləmə nəticəsində azərbaycanlılar tamamilə oradan qovulublar. Hazırda Ermənistan adlanan ərazidə bir nəfər də olsun azərbaycanlı qalmayıb və azərbaycanlılara məxsus mədəni irs tamamilə dağıdılıb.

Ermənistan beynəlxalq öhdəliklərinə rəğmən irqçi siyasətini davam etdirir. Bu ölkə azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına mane olur, soydaşlarımıza qarşı insanlıq əleyhinə cinayətlər və terror aktları törətmiş Qaregin Njde, Andranik Ozanyan, Drastamat Kanayan, Monte Melkonyan kimi ünsürləri şöhrətləndirir, Njdeizm kimi irqçi ideologiyanı dövlət səviyyəsində təşviq edir. QAİ-nin verdiyi bəyanatlarda dəfələrlə xüsusi vurğulanıb ki, biz Ermənistandan soyqırımı cinayətlərinə görə məsuliyyətini etiraf etməyi və barışıq naminə zəruri addımları atmağı tələb edirik. Ermənistan hökuməti qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına şərait yaratmalı və dağıtdığı Azərbaycan mədəni irsini bərpa etməlidir. Həmçinin Ermənistan azərbaycanlılara qarşı nifrət və ayrı-seçkiliyi aşılayan siyasət və praktikasını dayandırmalı, müharibə cinayətləri və insanlıq əleyhinə cinayət törətmiş şəxsləri ədalət məhkəməsinə təslim etməli, onları şöhrətləndirməyə dərhal son verməli, azərbaycanlılara qarşı cinayətlərdə iştirak etmiş hərbi və siyasi xadimlərə, terrorçulara qoyulmuş abidələri sökməli və aparılmış yer adları dəyişikliklərini ləğv etməlidir.

Erməni silahlı qruplaşmalarının 106 il bundan öncə Bakıda martın əvvəllərindən başlayaraq Azərbaycanın müxtəlif bölgələrində yerli müsəlman əhaliyə qarşı həyata keçirdikləri çoxsaylı soyqırımı aktı 1988-1991-ci illərdə, eləcə də 30 il işğal altında saxladıqları Qarabağ bölgəsində də həyata keçirilmişdir.

Qərbi Azərbaycan İcmasının fəaliyyəti dünyanın seçilən dövlət başçılarının, tanınmış politoloqların və mətbuat təmsilçilərinin maraq dairəsindədir. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova verdiyi müsahibədən də görmək mümkündür. Müsahibə zamanı bu həssas məsələdən bəhs edərkən İlham Əliyev demişdir: "... Ermənistandan gələnlərin icması var, onlar 1980-ci illərin sonunda - 1990-cı illərin əvvəlində deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır. Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib.

- Artıq Ermənistana?

- Artıq Ermənistana. Çünki onların 1990-cı illərin əvvəlində oradan deportasiyası o demək deyil ki, bu insanların qayıtmaq hüququ yoxdur. Ona görə də biz hələ bu günədək Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiyası prosesini necə görmələri barədə cavab almamışıq. Zənnimcə, əgər bu iki proses paralel kursla gedərsə, onda bu, sülh üçün ən yaxşı ictimai ab-hava yaradacaq. Çünki sülh təkcə sülh sazişini imzalamaq demək deyil, bu həm də ictimai konsensusdur. Bizim işğal illərində aldığımız yaralar isə 30 il keçməsinə baxmayaraq, hələ də sağalmayıb. Yəni bunun üçün vaxt lazımdır. Bu məqsəd üçün isə ictimai fon, ünsiyyət lazımdır, insani dildə danışmaq gərəkdir. Beləliklə, indi vəziyyət bundan ibarətdir".

Görünən odur ki, Qərbi Azərbaycandan deportasiya olunmuş insanların varislərinin bir araya gələrək Qərbi Azərbaycan İcmasını təsis etmələri tarixi bir hadisədir. Bu icmanın yaradılmasının təşəbbüskarı olan dövlət başçısının ona diqqət və qayğısı daim hiss olunmaqdadır. Erməni terroru nəticəsində uzun illər boyu öz doğma torpaqlarından uzaq düşmüş insanlar nə vaxtsa öz yurdlarına qayıdacaqlarına və hüquqlarının bərpasına böyük inam bəsləyirlər.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Vartana faciəsinin canlı şahidi doğma yurduna qayıdacağına əmindir

Qərbi Azərbaycanın Vartana kəndinin əzəli sahibi olan azərbaycanlılar ötən əsrdə ermənilər tərəfindən dəfələrlə etnik təmizləməyə və insanlığa sığmayan vəhşiliklərə məruz qalıblar. 1918-ci ildə yerindən-yurdundan didərgin salınan dinc əhaliyə zülm edilib, 100-dən çox insan yandırılaraq öldürülüb. 1988-ci ildə azərbaycanlılar yenə də öz ata-baba yurdlarından zorla çıxarılıblar. Buna etiraz edənlər, doğma yurdu ilə vidalaşmaq istəməyənlər işgəncələrə məruz qalaraq həyatları ilə vidalaşmalı olublar. Erməni zülmündən sağ qurtula bilənlərin ürəyinə isə yurd dağı çəkilib.







Tarixən azərbaycanlıların əsasını qoyduğu bir eldə, Pəmbək mahalının Böyük Qarakilsə rayonunun Vartana kəndində 1949-cu ildə anadan olan Məmmədhəsən Məmmədovun da tale payına torpaq nisgili, doğmasının itkisini yaşamaq, min bir əziyyətə qatlaşmaq düşüb. O, yaddaşında qalan ən acı xatirələri AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşüb. Məmmədhəsən müəllim sonradan özünün də şahidi olacağı erməni məkri, zülmü barədə ilk olaraq atasından eşidib: "10 uşaqlı ailədə dünyaya göz açmışam. Anam mənə və qardaşlarıma 1918-ci ildə ermənilər azərbaycanlıları deportasiyaya məruz qoyanda itkin düşən qohumlarının adlarını qoyub. O zaman atam Qəmbər Məmmədovun da 12 yaşı olub. Ailəsi ilə birgə Vartanadan çıxaraq digər türk eli olan Hallavar kəndinə sığınıb. Sonradan baba yurduna geri dönən atam deyərdi ki, bu yerlər bizim əzəli torpaqlarımızdır. 1830-cu ilə qədər orada sadəcə türk tayfaları yaşayıb".

Müsahibimin sözlərinə görə, azərbaycanlılar kəndə sonradan köçürülən ermənilərlə birgə yaşayışa məhkum ediliblər. Maymaq dağı, Xalxallı, Qazax talası, Ocağ dərəsi, Çətin dərə yaylaları, Qarpı, Mədən çayları, Gözdəyən, Muncuqlu, Söyütlü bulaqları ilə tanınan kənd vaxtilə Qazax əhalisinin yaylağ yerləri olub: "Maymaq dağının başında ilin bütün fəsillərində qar olardı, hər kəs zirvəsindəki pirə ziyarətə gələrdi. Kəndin havası təmiz, torpağı münbit idi. Bulaqların dumduru, şirin suyundan doymaq olmurdu. Əhali əsasən əkinçilik, heyvandarlıqla məşğul olurdu. Kənddə əvvəl 8 illik, sonradan yeni, 3 korpuslu 10 illik məktəb fəaliyyət göstərirdi. Tibb məntəqəsi, kitabxana, məscid, qədim qəbir daşları olan qəbiristanlıq da var idi".

Məmmədhəsən müəllim azərbaycanlıların zəhmətdən çəkinmədiklərini, öz adət-ənənələrinə sadiq olduqlarını da bildirir: "Bayramlarda, toylarda aşıqlar dastanlar söyləyib, bol nemətli süfrələr açılıb, dünyasını dəyişənlərin qəbirləri ziyarət edilib, insanlar bir-birinin evinə müxtəlif hədiyyələrlə gediş-gəliş edib, daha da mehribanlaşıblar. Kənddə yaşlılara ehtiram, uşaqlara qayğı, möhkəm ailə bağları kimi dəyərlərə xüsusi diqqətlə yanaşılıb. "Kəndin kişiləri igid, qeyrətli, sözünün ağası ərənlər idi, at belində gəzərdilər. Atamın təhsilimizlə maraqlanmaq üçün atın belində məktəbə gəlişi hələ də xatirimdədir. Bayramlarda da atlılar yarışardılar. Qadınlarımız yaşmaqlanardılar, ismətli, abırlı, bir o qədər də qorxmaz idilər. Gülabatın nənə var idi, atın tərkində gəzəndə ermənilər ondan çəkinərdilər. Ümumiyyətlə, ermənilər bizə yaltaqlanırdılar, sonradan əsl simaları üzə çıxdı".

O deyir ki, ötən əsrin 80-ci illərinin sonlarında ermənilərin azərbaycanlılara qarşı bəslədiyi kin-küdurət özünü daha aydın büruzə verməyə başlayıb. Təhsilli azərbaycanlılara vəzifə verilməyib, işləyənləri də bezdirməyə çalışıblar. Günahsız insanların həyatı üçün təhlükə yaradıblar. "Gözəldərə kəndində Bayram müəllim var idi, polisdə işləyirdi, ermənilər onu tapança ilə vurub öldürmüşdülər, guya öz canına qəsd edib. Süni qəzalar da törədirdilər. Bir dəfə bələkdəki oğlum qızdırmadan yanırdı, onu həkimə aparmağa belə ehtiyat etdik. Bilirdik ki, öldürə bilərlər. Neçə dəfə ermənilərlə bizə "Yaxşı oğlansan, amma heyif ki, türksən" dedikləri üçün dalaşmışıq", - deyə müsahibim bildirir.

Ermənilərin azərbaycanlılara qarşı təzyiqləri bununla yekunlaşmayıb. 1988-ci ilin qış aylarında vəziyyət lap dözülməz hal alıb. "Noyabrın 25-i evimizin pəncərəsindən içəriyə yekə daşlar atıldı. Kimə dəysəydi, ölüm halı qaçılmaz idi. Daşnaklar kəndə girib, oradan çıxmağımızı tələb edirdilər. Evləri daşlayırdılar, yanğınsöndürən maşınların siqnalları hələ də qulağımdan getmir. Çörəyimizi yeyən ermənilər də onlara qoşulmuşdular" deyən Məmmədhəsən Məmmədov onu da qeyd edir ki, azərbaycanlılar öz evlərini tərk etmək istəməyiblər. Vəziyyət getgedə daha ağır hal almağa başlayıb: "Cəlal və Sadıq kişi öz ailələrini xilas etmək istəyərkən onların qarşısını kəsib getdikləri maşını əzik-əzik etmişdilər, özlərini dərədən aşağı atmışdılar. Onların harayına yetmək istəyən qardaşım oğlu Mikayılı, Mamed müəllimi möhkəm döymüşdülər, Sadıq kişinin oğlu 33 yaşlı Vaqifi tüfənglə vurub öldürmüşdülər. Mən də anamı, həyat yoldaşımı, balacası 7 aylıq olan 3 övladımı min bir zülmlə Hallavar kəndinə apardım".

Müsahibimin sözlərinə görə, bu kənddə ancaq azərbaycanlılar yaşadığı üçün oranı daha az təhlükəli hesab edib. Kəndə çatanda orada da vəziyyətin pis olduğunu görüb. "Ermənilər yerli əhalidən evlərini tərk etmələrini istəyirdilər. Dekabrda baş verən zəlzələ yaşayışı daha dözülməz hala gətirdi. Evlərindən də olan insanlar çadırlara sığındılar. Sonda isə anamgili birtəhər Qazaxa yola salmağa macal tapdıq. Onlar da körpə uşaqla birgə dağ-dərə aşaraq, ac-susuz, zülm çəkə-çəkə canlarını qurtara bildilər" deyən Məmmədhəsən müəllim Vartanada daha dəhşətli hadisələrin yaşandığını qəhərlə xatırlayır. Bildirir ki, burada evlərini tərk etmək istəməyən 16 nəfərin canına vəhşiliklə qəsd edilib. "Ermənilər qardaşım Süleymandan Qarabağın onlara məxsus olduğunu söyləməsini istəmişdilər. O da bunu heç yuxularında da görə bilməyəcəklərini demişdi. Onu yandırıb öldürdülər. Mehralı İsgəndərov Sürik adlı erməniyə 5000 manat borc vermişdi. Həmin Sürik daşnaklara onun evini işarə verdi, onlar da gəlib özünü, arvadı Xanımı və oğlu Alimi amansızlıqla öldürdülər" deyən qərbi azərbaycanlı erməni vəhşiliyinin ağır nəticələrini yada salır. Deyir ki, ermənilər başqalarına gözdağı vermək üçün insanlığa yaraşmayan qətliamı davam etdiriblər: "İkinci Dünya müharibəsində bir qolunu itirən Qərib Bayramovu erməni faşistləri mal-qaraya ot verərkən öldürüb yandırmışdılar. Əhməd Alıyev, Leyli Hüseynova, Qara Bayramov, Abdulla Əliyevi də vəhşicəsinə qətlə yetiriblər. Fatma Əliyevanı maşının təkərləri altına salıb əzmişdilər. Şərabanı xalanın bədənini siqaret kötüyü ilə yandırmışdılar, zorla sağ qalmışdı. Digər kənd sakinləri Qazaxa sığındılar".

Ürəyinə dağ çəkilən vartanalılar 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə ilə təsəlli tapıblar. "Öldürülən qardaşım Süleymanın adını daşıyan nəvəsi digər qardaşım oğlu ilə birgə Vətən müharibəsində iştirak edərək qazi oldu. Şanlı Qələbədən sonra Süleyman mənə "Əmi, daha ağlama, babamın heyfini döyüş meydanında aldım" dedi. Elə bil dünyanı mənə verdilər" deyən Məmmədhəsən Məmmədov dədə-baba torpaqlarından qovulmuş, zülmə məruz qalmış hər bir azərbaycanlının Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını dəstəklədiyini deyir. Bildirir ki, ədalətin bir gün bərpa olunacağına, qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına ləyaqətli, təhlükəsiz şəkildə qayıdışına əmindir.

# Xankəndi və Tərtərdə matəmlə bağlı kütləvi tədbirlər təxirə salındı

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğraması nəticəsində həyatını itirən insanların xatirəsi dekabrın 26-da Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində olduğu kimi, Xankəndi şəhərində də birdəqiqəlik sükutla yad olunub.



Sükut dəqiqəsi zamanı nəqliyyatın və piyadaların hərəkəti dayandırılıb. Dövlət bayraqları yarıyadək endirilib. Baş vermiş faciə ilə əlaqədar olaraq Xankəndi şəhərində dekabrın 26-da keçirilməsi nəzərdə tutulan "Qış nağılı" yarmarkası təxirə salınıb.

❖❖❖

"Azərbaycan Hava Yolları" QSC-yə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi Tərtərdə də anılıb.

Ölkəmizin hər yerində olduğu kimi, Tərtər rayonunda da Azərbaycanın Dövlət Bayrağı endirilib, keçirilməsi nəzərdə tutulan kütləvi tədbirlər təxirə salınıb, saat 12:00-da təyyarə qəzasında həlak olanların xatirəsi birdəqiqəlik sükutla yad olunub. Sükut dəqiqəsi zamanı nəqliyyatın hərəkəti dayanıb.

Xatırladaq ki, "Azərbaycan Hava Yolları" QSC-yə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsini yad etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 26 dekabr 2024-cü il tarixdə Azərbaycan Respublikasında matəm elan edilib.

*AZƏRTAC*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Prezident İlham Əliyev dərhal Bakıya döndü və lazımi göstərişlər verdi
Dövlət başçısı təyyarə qəzası ilə bağlı müşavirə keçirib
Prezidentin Mətbuat Xidmətinin məlumatı
Prezidentin Mətbuat Xidmətinin məlumatı
Bu gün Azərbaycan Respublikasının ərazisində matəmdir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Dərmanlardan düzgün istifadə edilməlidir

Səhhətimizdə yaranan problemlərin həll edilməsi üçün bəzən dərman qəbul etməkdən başqa yol qalmır. Bəzi insanlar dərmanlardan necə gəldi istifadə edir, sağlamlıq üçün ciddi fəsadlar yaradacaq şəkildə qəbul edirlər. Mütəxəssislərin müşahidələrinə görə, pasiyentlərin yalnız 20 faizi onlara təyin olunan dərmanlardan düzgün istifadə edə bilirlər.



Dərmanların düzgün qəbulu onun sorulmasına, istənilən nəticənin əldə edilməsinə, fəsadlara səbəb olmamasına təsir göstərir. Ona görə də hansı dərmanı qəbul etməyin zəruriliyini bilməklə yanaşı, ondan necə istifadənin qaydasını da öyrənmək vacibdir.

## Həblər yalnız su ilə qəbul olunmalıdır

Qida komponentləri dərman vasitəsinin tərkib xüsusiyyəti ilə qarşılıqlı kimyəvi əlaqəyə girərək onun farmakoloji xüsusiyyətini dəyişdiyindən onları yeməkdən əvvəl, sonra və ya yemək zamanı qəbul etmək lazımdır. Bəzi bitki tərkibli preparatların, antibiotiklərin yaxşı sovrulmaları üçün mütləq acqarına qəbul etmək lazımdır. Yemək zamanı isə daha çox həzmi yaxşılaşdıran preparatlar - mədə şirəsi, həzm fermentləri qəbul olunur. Mədənin selikli qişasını qıcıqlandıran preparatlar, sidikqovucular, iltihabəleyhinə qeyri-steroid və steroid maddələr isə yeməkdən sonra içilməlidir.

Bəzi insanlar dərmanları müxtəlif şirələr, qazlı içkilər, çay, hətta mayesiz qəbul edirlər. Bunun qəti əleyhinə olan terapevtlər bildirirlər ki, dərman vasitələrini otaq temperaturunda olan qaynadılmış yarım və ya bir stəkan su ilə içmək məsləhətdir. Belə ki, çayın tərkibində olan aktiv maddə - tanin bəzi dərman vasitələrinin sorulma sürətinə təsir edir. Kofe özü tonuslandırıcı və güclü sidikqovucu təsir göstərir. Əgər dərman kofe ilə içilirsə, həmin preparat orqanizmdən tez xaric olacaq.

Dərman südlə içildiyi təqdirdə mədəyə olan qıcıqlandırıcı təsirlərin aradan qaldırıldığı deyilir. Lakin antibiotikləri və ürək qlikozidlərini südlə içmək olmaz. Süd dəmirin preparatların tərkibindən çıxmasına mane olur. Bəzi xaricdən qoruyucu turş xüsusiyyətli örtüklə əhatələnmiş dərmanlar isə südlə reaksiyaya girdikdə tərkibi tamamilə dəyişir.

Həblərin spirtli içkilərlə qəbulu da yolverilməzdir. Tədqiqatlar dərman vasitələrinin alkoqolla birlikdə daha tez həll olunduğunu göstərir. Xüsusilə antidepressant, ağrıkəsici və qızdırmasalıcılarla qəbul zamanı buna ciddi fikir verilməlidir. Əgər dərman vasitəsi qazlı su ilə içilsə, bu, mədədə artıq miqdarda qaz əmələ gətirdiyinə görə ürəkbulanma, köp, meteorizm kimi pozğunluqlara səbəb olacaq.

## Bu vitaminlərin birlikdə qəbulu zərərlidir

Vitamin, mineral və bitki tərkibli preparatlar immunitetin sağlamlığı, orqanizmin mövsümi və yaşla bağlı dəyişikliklərlə mübarizə aparması üçün olduqca faydalıdır. Lakin bu qida əlavələri təkbaşına zərərsiz olsalar da, birlikdə qəbul edildikdə qarşılıqlı təsir nəticəsində zərərli fiziki-kimyəvi reaksiyalara səbəb ola bilirlər.

Orqanizm üçün labüd vitaminlər arasında K və E vitaminləri xüsusi yer tutur. K vitamini sümükləri və qanın laxtalanmasını gücləndirməyə kömək edərkən, E vitamini beyin sağlamlığı, reproduktiv sağlamlıq və görmə üçün vacibdir. Lakin onların yüksək dozada qəbulu qan laxtalanması və böyrək problemləri riskini artırır. A, D, E və K vitaminlərinin tərkibində olan yüksək konsentrasiyalar qaraciyər və böyrəkləri zədələyir. Belə ki, yağda həll olunan bu vitaminlər sidiklə xaric oluna bilmədiyi üçün orqanizmdə toplanır.

ABŞ-nin Qərbi Virciniya Universitetinin tədqiqatçıları qida əlavələrindən istifadə edən təxminən bir milyon insanın iştirak etdiyi 277 araşdırma nəticələrini paylaşıblar. Tədqiqatlar göstərib ki, Omeqa-3 və fol turşusu kimi bəzi maddələr insanı ürək xəstəliklərindən və insultdan qoruyur. Lakin D vitamini və kalsiumu birlikdə qəbul etmək insult riskini əhəmiyyətli dərəcədə artırır. Riskli maddələrə multivitaminlər, selenium, A, C və E vitaminləri, fol turşusu və dəmir daxildir.

Mütəxəssislər deyirlər ki, A vitamini qəbul edən zaman E vitamini də istifadə edilməlidir ki, bağırsaqda retinolun turşulaşmasının qarşısını alsın. A və E vitaminlərini qəbul edərkən eyni zamanda C vitaminindən də istifadə edilə bilər. Belə ki, C vitamini bu iki vitamini gücləndirən təbii katalizatordur. Lakin A və E vitaminləri qəbul edərkən K vitaminindən imtina olunmalıdır.

Bir qrupdan olan B1, B2 və B3 vitaminlərinin də birgə qəbulu məsləhət görülmür. Belə ki, onlar bir-birinə mənfi təsir edərək, effektsizləşirlər. B9 vitamininin sink ilə, E vitamininin dəmir ilə, sinkin kalsium ilə qəbulu yolverilməzdir.

## Yulaf və kəpəkli çörək metforminin təsirini azaldır

Qida və dərmanın eyni vaxtda qəbulu dərmanın orqanizmdə paylanması, xaric olması və nəticədə farmakoterapiyanın effektivliyi və təhlükəsizliyinə güclü təsir göstərə bilər. Statinlər qanda yüksək xolesterinin səviyyəsini aşağı salan dərmanlardır. Britaniya Ürək Fondunun tədqiqatçıları deyirlər ki, onları qəbul edən insanlar qreypfrut və qreypfrut şirəsini istehlak etməməlidirlər. Bu qidanın istehlakı dərmanın yan təsirlərini əhəmiyyətli dərəcədə artırır. Qreypfrutda orqanizmin dərmanı parçalamaq prosesinə mane olan bir qrup kimyəvi maddə var. Bu meyvə dərmanla birlikdə qəbul edildikdə bəzi fermentlərin fəaliyyətini dayandırır, dərmanın nəzərdə tutulan dozadan daha çox udulmasına səbəb olur. Limon və portağal kimi digər sitrus meyvələrinin də eyni təsirə malik olduğu bildirilir. Qreypfrut bəzi qan təzyiqi dərmanlarının və bəzi psixiatrik dərmanların yan təsirlərini də artırır.

Süd, pendir və qatıq kimi süd məhsulları antibiotiklərin udulmasının qarşısını ala bilər. Süd məhsullarının tərkibində olan kalsium həzm sistemində antibiotiklərə qarışaraq dərmanın sorulmasını və effektivliyini azaldır. Bunun qarşısını almaq üçün süd məhsullarını qəbul etməzdən bir neçə saat əvvəl və ya sonra antibiotik qəbul etmək məsləhət görülür.

İspanaq, kələm və brokkoli kimi tərəvəzlər qan laxtalanmasında rol oynayan K vitamini ilə də zəngindir. Əgər pasiyent qanı durulaşdıran dərmanlar qəbul edirsə, bu tərəvəzlərdə olan K vitamini preparatların təsirini azalda və ya qanın laxtalanmasını artıra bilər.

Antipsixotik dərmanları çay və ya qəhvə kimi məhsullarda olan kofeinlə qəbul etmək vücudunuzun dərmanı su ilə qəbul etməkdən daha az mənimsəməsinə səbəb ola bilər. Kofein həmçinin bəzi antipsixotik dərmanların yan təsirlərini artıra, ürək ritminin dəyişməsinə və qan təzyiqinin yüksəlməsinə səbəb ola bilər.

Xolesterolu aşağı salmaq üçün yeyilən yulaf, kəpəkli çörək kimi qidalar metformin kimi şəkər dərmanlarının həzmini pozaraq təsirlərini azaldır.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Konstitusiya Məhkəməsi Palatasının iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxılıb

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Palatasının növbəti iclası keçirilib.



Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycan Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 232-ci maddəsinin şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxılaraq, plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Müraciətə mahiyyəti üzrə tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il yanvarın 23-nə təyin edilmiş iclasında baxılacaq.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti tabeliyində olan struktur idarələrə müxtəlif növ kabellərin satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 09 yanvar 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.**

***Tender komissiyası***


# Sabah Azərbaycanın bəzi yerlərində fasilələrlə yağış yağacaq



Dekabrın 27-də Azərbaycan ərazisində gözlənilən hava proqnozu açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Gecə yarımadanın ayrı-ayrı yerlərində intensivləşəcəyi ehtimalı var. Cənub-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 7-9° isti, gündüz 9-11° isti, atmosfer təzyiqi 767 millimetr civə sütunu olacaq. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi şərq rayonlarında, axşam isə əksər rayonlarda arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 2-7° isti, gündüz 8-12° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 4-9° isti olacaq.



# Xəzər dənizində daha bir zəlzələ qeydə alınıb

Xəzər dənizində növbəti zəlzələ qeydə alınıb. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb. Zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, Xəzər dənizində Bakı vaxtı ilə saat 07.28-də 3,1 maqnitudalı zəlzələ qeydə alınıb. Zəlzələ ocağı 30 kilometr dərinlikdə yerləşib.

Qeyd edək ki, dekabrın 26-da saat 02.03-də də Xəzər dənizində 3,0 maqnitudalı zəlzələ baş verib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov və İxtiyar Hüseynli sabiq millət vəkili

**FƏRHAD QƏRİBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin qəzaya uğraması nəticəsində faciəli şəkildə

**HƏLAK OLANLARIN**

ailələrinə dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Bakı-Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində

**HƏLAK OLANLARIN**

ailələrinə dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Maliyyə-inzibati şöbəsinin müdiri Adil Əhmədova bacısı

**TÜNZALƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4233
Sifariş 2980

Qiyməti 60 qəpik